HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 19 (759) ▪ 20 may 2015 www.vergiler.az Qiymәti: 40 qәp.


# Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu

Mayın 18-də Bakıda «Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq» mövzusunda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışı olub. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.



Mərasimdə nitq söyləyən dövlətimizin başçısı bildirib ki, forumun ölkəmizdə keçirilməsi bir daha Azərbaycanın sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşdiyini təsdiq edir. Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər: «Düşünürəm ki, bu, bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturializm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var».

Azərbaycan Prezidenti bildirib ki, ölkəmizdə multikulturalizm ənənələri hər zaman güclü olub və Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin təşviqi istiqamətində hökumətimizin atdığı daha bir addım idi. Prezident İlham Əliyev Azərbaycanın regional əməkdaşlığın gücləndirilməsinə töhfə verdiyini, enerji təhlükəsizliyində mühüm rol oynadığını, bütün ölkələrlə dostluq, sülh, tərəfdaşlıq etdiyi diqqətə çatdırıb.

**rəsmi xronika**

## Vyetnam dövlət başçısının Azərbaycana səfəri

Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın mayın 14-də Azərbaycan Respublikasına rəsmi səfər edib. Prezident İlham Əliyevin və Çıonq Tan Şanqın görüşü zamanı ölkələrimiz arasında münasibətlərin ildən-ilə inkişaf etdiyi diqqətə çatdırılıb. Dövlət başçılarının geniş tərkibdə keçirilən görüşündə ölkələr arasında münasibətlərin uğurlu inkişafı diqqətə çatdırılıb, siyasi, iqtisadi və energetika sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu vurğulanıb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın iştirakı ilə Azərbaycan-Vyetnam sənədlərinin imzalanması mərasimi olub. Sonra hər iki president mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Mayın 14-də Bakıda Azərbaycan-Vyetnam biznes forumu keçirilib. Tədbirdə Prezidentlər İlham Əliyev və Çıonq Tan Şanq iştirak ediblər.

# *Prezident İlham Əliyev:* «Şadam ki, Azərbaycanda idmanın velosiped növü də uğurla inkişaf edir»

*Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, «Bakı-2015» ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və qızı Arzu Əliyeva Bakıda Veloparkın açılışında iştirak ediblər.*





Dövlətimizin başçısı və xanımı əvvəlcə Veloparkın baş planına baxıblar. Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Fazil Məmmədov görülən işlərlə bağlı məlumat verib. Hazırda Veloparkın yerləşdiyi ərazidəki park 1970-ci illərin əvvəllərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə salınıb. 1990-cı illərin əvvəllərində baxımsızlıq üzündən bərbad vəziyyətə düşən bu ərazidə qanunsuz tikililər inşa olunub. 2005-ci ilin sentyabrında Prezident İlham Əliyev parkın ərazisində təmizlik işlərinin aparılması barədə göstəriş verib. 2013-cü ildə isə parkın ərazisi baza kimi Azərbaycan Velosiped İdmanı Federasiyasına təhkim edilib. Ötən müddətdə federasiya tərəfindən 40 hektar ərazidə genişmiqyaslı abadlıq işləri aparılıb, minlərlə ağac əkilib, yarışlar üçün 4 velosiped marşrutu, o cümlədən dağ velosiped idmanı üçün yollar salınıb. Ümumi sahəsi 30 hektardan çox olan Veloparkın ərazisində Avropa Oyunlarında istifadə olunacaq BMX veloparkı da inşa olunub. Sahəsi 28 min kvadratmetr olan BMX veloparkında yarışların keçirilməsi üçün maneəli meydança qurulub ki, onun da sahəsi 6700 kvadratmetrdir. Meydançada yaradılan şərait Beynəlxalq Velosipedçilər İttifaqının standartlarına tam uyğundur. Həm yarış iştirakçıları, həm də azarkeşlər üçün hər cür şəraitin mövcud olduğu BMX veloparkında 1197 nəfərlik tamaşaçı yeri yaradılıb. Burada yüksək səviyyəli qonaqlar, idmançılar, əlil tamaşaçılar və mətbuat nümayəndələri üçün xüsusi yerlər nəzərdə tutulub.




Dünya idmanında özünəməxsus yeri olan BMX - start xəttindən istifadə edən və maneəli cığırlarda motokros stilində yarışan velosipedlərlə bağlı idman növüdür. Ötən əsrin 70-ci illərində əsası qoyulan bu idman növü indi bütün dünyada məşhurdur. 1981-ci ildə Beynəlxalq BMX Federasiyasının təsis olunması, bir il sonra isə dünya çempionatının keçirilməsi ilə bu idman növünün şöhrəti daha da artıb və hazırda Beynəlxalq Velosipedçilər İttifaqının tərkib hissəsinə çevrilib. 2003-cü ildən isə BMX Beynəlxalq Olimpiya Komitəsinin proqramına daxil edilib və ilk dəfə 2008-ci il Pekin Yay Olimpiya Oyunlarında təmsil olunub.

Veloparkın ərazisində tikilən ikimərtəbəli ofis binasında qeydiyyat mərkəzi, iş, dopinq nəzarət, dopinq analizgötürmə otaqları, 25 yerlik iclas zalı və digər yardımçı otaqlar yaradılıb. Ofis binasının damında xüsusi örtüklü start meydançası, idmançıların hazırlaşması üçün 20 çadır quraşdırılıb. Ərazidə VIP, Olimpiya ailəsi, beynəlxalq federasiyaların təmsilçiləri, rəsmi nümayəndələr üçün avtodayanacaq, qeydiyyat, fərdi yerləşdirmə və digər xidmət sahələri də mövcuddur.

Azərbaycanda irimiqyaslı velosiped yarışlarının keçirilməsi ötən əsrin 40-cı illərinin əvvəllərinə təsadüf edir. 1980-ci ildə ümummilli lider Heydər Əliyevin xidmətləri sayəsində Bakıda dünya standartlarına uyğun və bir çox ümumittifaq yarışlarının keçirildiyi Respublika Velotreki tikilib istifadəyə verilib. Prezident İlham Əliyevin ölkədə idmanın inkişafına xüsusi diqqət və qayğısı nəticəsində idmanın bir çox növləri ilə yanaşı, velosiped idmanı da inkişaf etdirilir. Bununla bağlı Azərbaycan Velosiped İdmanı Federasiyasının qarşısına ölkəmizdə idmanın bu növünün inkişaf etdirilməsi və velosipedçilərimizin Olimpiya Oyunlarına, eləcə də digər mötəbər beynəlxalq yarışlara hazırlanması ilə bağlı vəzifələr qoyulub. Hazırda Azərbaycanda velosiped idmanı ilə məşğul olan məktəblər, klublar fəaliyyət göstərir. Ölkəmizdə keçirilən velosiped yarışları isə bu prosesin uğurla inkişaf etdiyini və kifayət qədər maraq doğurduğunu bir daha təsdiqləyir. Azərbaycanın artıq 3 ildir fəaliyyət göstərən «Synergy Baku Cycling Project» velosiped komandasının üzvləri 2013-cü ildən Beynəlxalq Velosipedçilər İttifaqının təşkil etdiyi Avropa və Asiya turlarında iştirak edir. Komandanın 12 nəfərdən ibarət üzvü indiyə qədər Xorvatiyada, Fransada və digər ölkələrdə keçirilən beynəlxalq yarışlarda uğurlu çıxışlar edib.

Komandanın üzvləri Veloparkda Prezident İlham Əliyevlə görüşərkən ölkədə idmançılar, o cümlədən onlar üçün yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, komandanın üzvləri bu il mayın 6-10-da ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan «Tour d`Azerbaidjan» veloyürüşündə də fərqləniblər. Paytaxt da daxil olmaqla ölkəmizin 7 bölgəsini əhatə edən və uğurla başa çatan bu yarışda Aleksandr Surutkoviç «Dağ kralı» köynəyini qazanıb, Matey Müqerli üçüncü yeri tutub. Ölkəmizin ən güclü velosipedçilərindən olan Maksim Averin isə öz çıxışı ilə Rio Olimpiadasına daha 22 reytinq xalı qazanıb.

Prezident İlham Əliyevi salamlayan milli komandanın üzvü Elçin Əsədov deyib: «Cənab Prezident, biz idmançılar həmişə Sizinlə fəxr edirik. Bizə göstərdiyiniz dəstəyə görə Sizə təşəkkür edirik. İdmanın bütün növləri kimi, velosiped idmanına da çox böyük dəstək verirsiniz. Çox sağ olun!».

Velosipedçiləri qazandıqları uğur münasibətilə təbrik edən dövlət başçısı onları qələbə münasibətilə təbrik edib: «Şadam ki, Azərbaycanda idmanın velosiped növü də uğurla inkişaf edir. Gözəl şərait var, veloparklar yaradılır. «Tour d`Azerbaidjan» artıq beynəlxalq idman yarışı kimi dünyada tanınır. Mən bazar günü «Eurosport» kanalı ilə bu yarışları izləmişəm, çox böyük zövq almışam. İlk növbədə ona görə ki, indi bu yarışlar çox maraqlıdır. Eyni zamanda, Bakının gözəlliyini bir daha bütün dünyaya göstərir. Siz də çox böyük uğur qazanmısınız, komanda hesabında birinci yerə layiq görülmüsünüz.

«Tour d`Azerbaidjan» Azərbaycanın bölgələrində də keçirilir və bizim gözəl, mənzərəli yerlər xarici qonaqlar tərəfindən yüksək qiymətləndirilir. Bakı gözəl şəhərdir. Digər şəhərlərimiz də gözəldir. Siz indi gedib görürsünüz. İnsanlar sizi çox səmimi qarşılayırlar. Əlbəttə, mötəbər yarışda qələbə qazanmaq çox böyük uğurdur. Əminəm ki, siz gələcəkdə də Azərbaycanı bütün beynəlxalq yarışlarda ləyaqətlə təmsil edəcəksiniz».


2 | ISESCO-nun baş direktoru Vergilər Nazirliyində olub

3 | Könüllü əməletmə səviyyəsi yüksəlir

4 | Vergidən yayınmanın müəyyənləşdirilməsində İKT-nin rolu

5 | İqtisadi əlaqələrin genişləndirilməsi üçün mühüm müzakirə platforması

# Litvanın xarici işlər nazirinin müavini ilə görüş

*May ayının 15-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Litva Respublikasının xarici işlər nazirinin müavini Andrius Krivası, Litvanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskası və Litva Respublikasının Xarici İşlər Nazirliyinin Şərq qonşuluq siyasəti idarəsinin Mərkəzi və Cənubi Qafqaz şöbəsinin 2-ci katibi xanım Şarune Kubiliuteni qəbul etmişdir.*



F.Məmmədov qonaqları salamlayaraq ölkələrimiz arasındakı siyasi-iqtisadi münasibətlərin son illər sürətlə inkişaf etdiyini bildirmiş, Azərbaycan-Litva hökumətlərarası komissiyanın ölkələrimiz arasında əlaqələrin daha da dərinləşdirilməsi istiqamətində gördüyü işlər, bu sahədə imzalanmış protokollara uyğun olaraq həyata keçirilən tədbirlər barədə məlumat vermişdir. Son illər ölkəmizdə həyata keçirilən vergi islahatları, vergi inzibatçılığı və informasiya texnologiyalarının tətbiqi, vergi ödəyicilərinə göstərilən elektron xidmətlər sahəsində əldə edilmiş nailiyyətlər də qonaqların diqqətinə çatdırılmışdır.

Andrius Krivas ölkəmizə səfərindən məmnunluğunu ifadə edərək səmimi qəbula görə minnətdarlığını bildirmiş, həm Azərbaycan, həm də Litvada hər iki ölkənin nümayəndələrinin iştirakı ilə müxtəlif biznes-forumlar, sərgi və işgüzar görüşlərin keçirildiyini vurğulayaraq, iş adamları arasında əlaqələrin genişləndirilməsinin ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinə öz müsbət təsirini göstərəcəyinə əminliyini söyləmişdir.

Görüşdə Azərbaycan və Litva hökumətləri arasında əməkdaşlığın inkişaf istiqamətləri və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

# Vergi ödəyiciləri üçün yeni innovativ xidmətlər

*Mayın 16-da Vergilər Nazirliyində keçirilən növbəti «Məlumat saatı»nın mövzusu vergi ödəyicilərinə göstərilən xidmətlərə həsr olunmuşdur.*

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərovun iştirakı ilə keçirilmiş tədbirdə Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəis müavini Məhəmməd Yunusov «Vergi ödəyicilərinə innovativ xidmətlər» mövzusunda təqdimatla çıxış etmişdir.

Bildirilmişdir ki, Vergilər Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən biri vergi ödəyicilərinə göstərilən xidmətlərin və könüllü əməletmənin səviyyəsini artırmaqdır. Təcrübə göstərir ki, vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsi nə qədər yüksək olarsa, könüllü əməletmə səviyyəsi də o qədər yüksək olar.

Qeyd olunmuşdur ki, vergi ödəyicilərinin sayının artması əməletmə səviyyəsinin dinamikasına da öz təsiri göstərir. Əməletmə səviyyələrinə görə ödəyiciləri üç qrupa - könüllü əməl edənlər, əməl etməyənlər və çətinlik çəkənlər qrupları üzrə təsnifləşdirmək olar. Hazırda ödəyicilərin 75%-i vergiləri könüllü ödəyirlər. Vergi orqanlarının əsas işi əməl etməyənlərə ciddi nəzarət və çətinlik çəkənlərə zəruri kömək göstərməkdir. Araşdırmalara əsasən müəyyən edilmişdir ki, bu qrupa aid ödəyicilərin texniki vasitələrdən və yeni nəsil e-xidmətlərdən istifadə bacarıqları zəifdir, onların məlumatsızlığı bir çox hallarda könüllü əməletməyə mane olur. Könüllü əməledənlərin sırasının daha da genişləndirilməsi üçün onlara göstərilən innovativ xidmətlərin səmərəliliyi artırılmalı, ödəyicilərin bilik səviyyəsinin yüksəldilməsi məqsədilə maarifləndirmə və təbliğat işləri gücləndirilməlidir.

Bildirilmişdir ki, vergi ödəyicilərinə innovativ xidmətlərin başlıca istiqamətlərindən biri «Fərdi vergi təqvimi»dir. Ödəyici təqvim vasitəsilə ona aid əməliyyatlar, yoxlama və vergi ödəmələri barədə tanış olur, üzərinə düşən öhdəliklər haqqında daim məlumatlandırılır. Təqvimdə ödəyicinin icra olunmamış öhdəlikləri, vergi orqanı tərəfindən göndərilən digər məlumatlar da öz əksini tapır. «Fərdi vergi təqvimi» vergi orqanı əməkdaşının da bu sistemə daxil olmaqla ödəyicinin öhdəlikləri haqqında məlumatlarla tanış olmasına imkan verir.

Vergi ödəyiciləri üçün nəzərdə tutulmuş digər innovativ xidmət «Asan imza» ilə əməliyyatların həyata keçirilməsidir. İnnovativ xidmətlərdəTvinninq layihəsinin tətbiqi də mühüm prioritet kimi müəyyənləşdirilmişdir. 27 ay ərzində həyata keçirilməsi nəzərdə tutulan bu layihə resurslardan optimal istifadə olunmasını və ödəyicilərə keyfiyyətli xidmətlərin göstərilməsinə dəstək verməyi nəzərdə tutur. Layihə çərçivəsində vergi ödəyicilərinə xidmət prosesləri üzrə davamlı inkişaf proqramı, xidmətlərə olan tələbatın müəyyənləşdirilməsi və idarə olunması, əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi və təkmilləşdirilməsi, xidmət kanalları üzrə təhlil mexanizmlərinin yaradılması planlaşdırılmışdır.

Vergi ödəyicilərinə innovativ xidmətlərin başlıca komponentləri ümumilikdə ödəyicinin inzibati yükünün azaldılmasına, vergi inzibatçılığının səmərəliliyinin artırılmasına, məlumatsızlıqdan yaranan itkilərin minimallaşdırılmasına və vaxta qənaət edilməsinə, hesabat və ərizələrin vaxtında təqdim olunmasına, Çağrı Mərkəzində məlumatdan əməliyyata doğru xidmətlərin reallaşmasına, «Asan imza»dan istifadənin stimullaşdırılmasına və könüllü əməletmə səviyyəsinin artırılmasına xidmət edir.

Tədbirin sonunda mövzu ətrafında geniş müzakirələr aparılmışdır.

**E.CƏFƏRLİ**




*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Vergilər Nazirliyinin bir qrup əməkdaşı «Heydər zirvəsi»ni ziyarət etmişlər.*
*Çətin dağ yollarını mərhələ-mərhələ qalxaraq müstəqil dövlətimizin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adını daşıyan zirvəni fəth edən vergi əməkdaşları burada ümummilli liderin barelyefi önünə tər çiçəklər qoymuş, Azərbaycanın dövlət bayrağını ucaltmışlar.*

# ISESCO-nun baş direktoru Vergilər Nazirliyində olub

*May ayının 19-da vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün ölkəmizə gələn İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) baş direktoru Əbdüləziz Bin Osman Əl-Tüveycrini qəbul etmişdir.*



F.Məmmədov qonağı salamlayaraq Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının (İƏT) müxtəlif qurumları, o cümlədən ISESCO ilə sıx əməkdaşlıq etdiyini bildirmişdir. Qeyd olunmuşdur ki, ISESCO ilə münasibətlər 2006-cı ildən inkişaf etməkdədir və ölkəmizin birinci xanımı Mehriban Əliyeva bu mötəbər qurumun xoşməramlı səfiri adına layiq görüldükdən sonra münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Humanitar sahədəki fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya «İƏT-in Humanitar məsələlər üzrə xüsusi elçisi» diplomu təqdim edilmişdir. İslam ölkələrinin daxil olduğu təşkilatın bu yüksək adlarına layiq görülən ilk qadın Azərbaycanın birinci xanımıdır.

Əbdüləziz Bin Osman Əl-Tüveycri səmimi qəbula görə minnətdarlığını ifadə edərək 2006-cı ildən bəri respublikamızda keçirilmiş bir sıra beynəlxalq tədbirlərdə iştirak etdiyini və ölkəmizlə əməkdaşlığın səviyyəsindən razılığını bildirmiş, ISESCO-nun bu əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü təyin edildiyini qeyd edən ISESCO-nun baş direktoru diqqətə çatdırmışdır ki, ötən il Azərbaycan Respublikası ilə əldə olunmuş razılığa əsasən, ISESCO-nun 12-ci Baş Konfransı və İcraiyyə Şurasının 36-cı sessiyası 2015-ci ildə Bakı şəhərində keçiriləcək. Azərbaycanın birinci xanımı, ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın himayədarlığı ilə 2015-ci ilin may ayında bu təşkilatın Baş Qərargahında «Azərbaycan günləri»nin keçirilməsi təşəbbüsünü təşkilatın rəhbərliyi müsbət qarşılamışdır və bu il Bakıda ISESCO-nun xoşməramlı səfirlərinin yığıncağının keçirilməsi nəzərdə tutulmuşdur.

Baş direktor azərbaycanlı həmkarları ilə birgə beynəlxalq təşkilatlar səviyyəsində dünyada ilk dəfə olaraq ISESCO ASANDOC (ASAN DOCUMENT) portalının yaradılmasını və 2015-ci ilin son rübündə Bakı şəhərində 1-ci ISESCO Beynəlxalq İnnovasiya Forumunun təşkil edilməsi məsələsini də nəzərdən keçirdiklərini bildirərək, Azərbaycanda bu texnologiyanın tətbiqi prosesinin fəal iştirakçısı kimi Vergilər Nazirliyinin göstərə biləcəyi dəstəyin bu işə çox dəyərli töhfə olacağını vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də müzakirələr aparılmışdır.

# Qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmaları artıb

2015-ci ilin yanvar-aprel ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 2 milyard 368 milyon manatdan çox vəsait daxil olmuş, proqnoz tapşırığına 101,7% əməl edilmişdir.

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 1 milyard 549 milyon 37,2 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,7% çoxdur.

Ümumi vergi daxilolmalarında qeyri-neft-qaz sektorunun xüsusi çəkisi 65,4% təşkil edir.

# Müraciətlər operativ cavablandırılır

2015-ci ilin aprel ayında Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən canlı əlaqə zamanı 21100 müraciət cavablandırılmışdır.

Vergi ödəyiciləri 2879 dəfə vergi borcu, 1304 dəfə isə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə etmiş, onlara 136474, o cümlədən 134399 qısa və 2075 ikitərəfli mesaj göndərilmişdir.

Ay ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 339899 daxilolma qeydə alınmışdır.

# Beynəlxalq Vergi İnformasiya Platforması

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən innovativ texnologiya prinsipləri əsasında hazırlanan Beynəlxalq Vergi İnformasiya Platforması (BVİP) vergi əməkdaşları arasında ən çox istifadə olunan xidmətlərdən birinə çevrilib. Qısa müddət ərzində fəaliyyət göstərən platforma beynəlxalq aləmdə vergilər sahəsində baş verən yeniliklər, statistik məlumatlar, analitik hesabat və təhlillərlə tanış olmaq imkanı yaradır.

Mövzunu davam etdiririk.




***Əməkdaşlıq layihələri***

Bu bölməyə Vergilər Nazirliyinin beynəlxalq və regional təşkilatlar, eləcə də xarici ölkələrin vergi administrasiyaları ilə həyata keçirdiyi uzunmüddətli əməkdaşlıq layihələri barədə məlumatlar daxil edilib. Bölmədə layihənin məqsədi və müddəti, əlaqələndirici təşkilat, layihənin icrası üzrə hesabat xarakterli materiallar və fotolar yerləşdirilib.

«Əməkdaşlıq layihələri» bölməsində Aİ-nin TACIS proqramı çərçivəsində «Vergi sisteminin müasirləşdirilməsi» layihəsi, «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» adlı Tvinninq layihəsi, «Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» adlı Tvinninq layihəsi yer alıb.

***Beynəlxalq indekslər***

Bu bölmədə Dünya Bankının illik «Doing Business» hesabatları, Ümumdünya İqtisadi Forumunun hesabat və indeksləri, «Heritage» Fondunun «İqtisadi azadlıq indeksi» və digər beynəlxalq indekslər barədə təhlil icmalları və materialları yerləşdirilib.

***Beynəlxalq tədbirlər***

Bölməyə Vergilər Nazirliyinin beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı çərçivəsində ölkəmizdə təşkil olunan konfranslar, forumlar və digər beynəlxalq tədbirlər barədə məlumatlar, tədbirlərin materialları və sənədləri daxil edilib.

Bölmədə Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) baş əlaqələndirici şəxslərinin 19-cu Forumu, IOTA İcraiyyə Şurasının 92-ci iclası barədə materiallar ilə də tanış olmaq mümkündür.

***Yeniliklər***

Bölmədə xarici ölkələrin vergi sistemi, vergi qanunvericiliyi və inzibatçılığında baş verən yeniliklər barədə məlumatlar və beynəlxalq aləmdə vergi məsələlərinə dair informasiyalara yer ayrılıb.

***Faydalı elektron ünvanlar***

Bu bölməyə xarici ölkələrin vergi administrasiyalarının, beynəlxalq və regional təşkilatların, beynəlxalq forum və layihələrin, vergilər üzrə informasiya agentliklərinin rəsmi internet ünvanları, həmçinin Azərbaycan Respublikasının xarici ölkələrdə akkreditə olunmuş diplomatik nümayəndəliklərinin və Azərbaycan Respublikasında akkreditə olunmuş xarici diplomatik nümayəndəliklərin rəsmi internet ünvanları daxil edilib.

**AYTƏN**

# Audit və operativ nəzarət məsələləri müzakirə olunub

Mayın 15-də Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin inzibati binasında audit və operativ nəzarət strukturları tərəfindən 2015-ci ilin 4 ayı ərzində həyata keçirilən vergi nəzarəti tədbirlərinin vəziyyəti, I Avropa Oyunları zamanı görülməli işlər və qarşıda duran vəzifələrin icrasına həsr olunmuş iclas keçirilmişdir.



Departamentin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə keçirilmiş iclasda bu ilin yanvar-aprel ayları ərzində aparılmış səyyar vergi yoxlamaları və operativ nəzarət sahəsində görülmüş işlər, obyektlərdə POS-terminalların quraşdırılması və onlardan istifadəyə nəzarət, vergi ödəyicilərinə vergi nəzarəti məsələləri müzakirə edilmişdir.

Vergilər nazirinin müşaviri İlqar Əhmədovun iştirak etdiyi tədbirdə Audit və operativ nəzarət sahələri üzrə müşavir xidməti şöbəsinin rəisi Toğrul Quliyev və həmin şöbənin Operativ vergi nəzarəti tədbirlərinin təhlili bölməsinin rəisi Vüsal Məmmədov çıxış edərək həyata keçirilmiş nəzarət işlərinin vəziyyəti, səyyar vergi yoxlamaları, yoxlamalar nəticəsində hesablanmış əlavə vəsaitin və tətbiq olunmuş maliyyə sanksiyalarının məbləği, onların büdcəyə alınması vəziyyəti barədə ətraflı məlumat vermişlər.

İclasda departament tərəfindən həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri üzrə vergi ödəyicilərindən daxil olmuş şikayətlər, onlara baxılmasının vəziyyəti də müzakirə olunmuşdur. Tədbirdə ötən ilin müvafiq dövründə departament tərəfindən azalma müşahidə olunan sahələr xüsusi vurğulanmış və həmin sahələrdə həyata keçiriləcək tədbirlərin ciddi nəzarətə götürülməsi, müsbət nəticələrin əldə edilməsinin zəruriliyi bildirilmişdir.

İclasın gedişində ərazi vergi orqanlarının rəhbər vəzifəli şəxsləri ilə audit və operativ nəzarət sahələrində görülmüş işlər barədə telekonfrans keçirilmişdir. Ərazi vergi orqanlarında 2015-ci ilin ilk 4 ayı ərzində görülmüş işlərin nəticəsinə dair müzakirə aparılmış, iclasda sadalanan nöqsanların tez bir zamanda aradan qaldırılması, nəzarət-kassa aparatları və POS-terminallarla hesablaşmaların günün tələbi səviyyəsində qurulması üçün vergi nəzarəti tədbirlərinin gücləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verilmişdir.

Qeyd olunmuşdur ki, audit və operativ nəzarət tədbirləri zamanı hesablanmış vergilərin və müvafiq sanksiyaların dövlət büdcəsinə ödənilməsi, vergi ödəyicilərinin risk meyarları üzrə yoxlanılması və bu kimi digər mühüm məsələlər daim Vergilər Nazirliyi tərəfindən nəzarətdə saxlanılacaqdır.

# Könüllü əməletmə səviyyəsi yüksəlir

*«Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası»nda əsas hədəflərdən biri vergilərin məcburi yığımından könüllü ödəməyə keçid prosesinin sürətləndirilməsidir. Konsepsiyanın həyata keçirilməsi nəticəsində 2015-ci ildə könüllü əməletmə səviyyəsinin 82-85 faizə çatdırılacağı gözlənilir.*

Qeyd edək ki, vergi ödənişində könüllü əməletmə səviyyəsi 2011-ci ildə 67 faiz, 2012-ci ildə 68,3 faiz, 2013-cü ildə 70 faiz, 2014-cü ildə isə təxminən 75 faiz olmuşdur. Artıq vergi ödəyicilərinin 90 faizə yaxını vergi bəyannamələrini elektron şəkildə təqdim edir. Vergi bəyannamələrinin təqdim edilməsi ilə yanaşı, vergi öhdəliklərinin icrası, vergi orqanları ilə təmas imkanı verən bütün proseslər elektronlaşdırılmışdır. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan vergi ödəyicilərinin elektron qeydiyyatı sisteminin uğurlu tətbiqi üzrə dünyanın 12 aparıcı dövləti sırasındadır. Vergi inzibatçılığının modernləşdirilməsi nəticəsində Azərbaycanda sahibkarlar vergi orqanlarına gəlmədən bütün öhdəliklərini internet vasitəsilə yerinə yetirə bilirlər.

Vergi ödənişlərində könüllü əməletmə səviyyəsinin yüksəldilməsi üçün vergi ödəyicilərinin öz vəzifələri barədə kifayət qədər məlumatlı olmaları çox vacibdir. Vergi qanunvericiliyi ilə bağlı biliklərin artırılması, vergi mədəniyyətinin ümumi səviyyəsinin yüksəldilməsi, vergi orqanları və biznes strukturları arasında qarşılıqlı əlaqənin genişləndirilməsi, ödəyicilərin istənilən vaxt istənilən yerdən istənilən məlumatı ala bilmələri imkanlarının yaradılması vergilərin könüllü ödənilməsini stimullaşdırır. Vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar da məhz bu məqsədə istiqamətlənib. Mütəxəssislərin fikrincə, vergi partnyorluğu sazişlərinin sayı artdıqca vergi ödənişlərində könüllü əməletmə səviyyəsi daha da yüksələcək.

Vergilər Nazirliyinin mövcud informasiya mənbələri olan «195» Çağrı Mərkəzi, www.taxes.gov.az internet saytı, vergi orqanlarının vergi ödəyicilərinə xidmət strukturları, vergi ödəyicilərinə xidmət mərkəzləri, həmçinin «Vergi dostları» şəbəkəsi və digər irimiqyaslı layihələr bu istiqamətdə atılan mühüm addımlardır.



*Vergi ödənişində könüllü əməletmə səviyyəsi 2011-ci ildə 67%, 2012-ci ildə 68,3%, 2013-cü ildə 70%, 2014-cü ildə isə təxminən 75% olmuşdur*

Vergilər Nazirliyinin rəsmi internet səhifəsi Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Burada qanunvericilik aktları, sual-cavab, e-xidmətlər, bəyannamə formaları və onların doldurulması qaydaları, vergilər naziri ilə birbaşa əlaqə, vergi təqvimi, vergi daxilolmalarının statistikası, vergi orqanlarının interaktiv xəritəsi, video-bələdçi, vergilərlə bağlı testlər və digər bölmələr yerləşdirilmişdir ki, bütün bu imkanlar vergi ödəyicilərinin biliklərinin artırılmasına, məlumatlanmaya və maarifləmməyə xidmət edir. Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı «Facebook», «Twitter», «Youtube» sosial şəbəkələrində geniş materialların yerləşdirilməsini də istifadəçilər böyük maraqla qarşılayıblar.

Vergilərin könüllü ödənilməsi mədəniyyətinin formalaşmasının əsas elementlərindən biri vergi intizamı ilə bağlıdır. Vergi intizamının təmin olunması mütəmadi təlimlərin keçilməsini, büdcə ilə hesablaşmaların aparılmasında vergi ödəyicilərinin mənəvi hazırlığının və maliyyə qabiliyyətliliyinin inkişaf etdirilməsini, vergi orqanları ilə vergi ödəyiciləri arasındakı qarşılıqlı əlaqələrin ahəngdar şəkildə qurulmasını tələb edir. Vergi intizamı anlayışı həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının fəaliyyətinə aid edildiyinə görə onun qarşılıqlı şəkildə formalaşması vacib şərtlərdəndir. Vergi intizamsızlığı lüzumsuz məhkəmə çəkişmələrinin yaranmasına və inzibati xərclərin artmasına gətirib çıxarır. Belə hallara yol verilməməsi üçün vergi mədəniyyətinin yüksəldilməsi və vergi intizamının gücləndirilməsi ilə əlaqədar tədbirlər görülərkən təkcə vergi ödəyicilərini deyil, vergi orqanı əməkdaşlarının da intizamlı olması tələb olunur. Buna görə də hər bir vergi müfəttişinin və bütövlükdə vergi orqanlarının işinin keyfiyyətinin artırılması Vergilər Nazirliyinin daim diqqət mərkəzindədir. Nazirlik vergi orqanlarında mütəmadi olaraq etik davranış məsələləri ilə bağlı təlimlər təşkil edir, qarşıya çıxan problemlər ətraflı təhlil olunur. «Etik davranış, qarşıya çıxan problemlər və onların həlli yolları» mövzusunda keçirilən bu tədbirlərdə «Vergi işçisinin etik davranış Kodeksi»nin tələbləri və vergi xidməti əməkdaşlarının vəzifələri barədə geniş məlumatlandırma və maarifləndirmə işləri aparılır, məsələ ilə bağlı müzakirələr keçirilir.

Vergitutma mexanizminin sadələşdirilməsi, vergi mübahisələrinin həlli mexanizmlərinin təkmilləşdirilməsi, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq prinsipləri əsasında qurulması, vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi işlərinin müasir İKT-nin imkanlarından istifadə olunmaqla təşkili əsas prioritetlərdəndir.

**Rəşad SADIQOV**

# Müraciətlərə diqqət və həssaslıqla yanaşılır

*2015-ci ilin aprel ayı ərzində vergi orqanlarına cəmi 9028 müraciət daxil olmuşdur ki, onlardan da 97,4%-i ərizə, 2,5%-i şikayətdir.*

Müraciətlərin 42,1%-i kameral vergi yoxlamaları, 29,6%-i müxtəlif arayışların alınması, 8,2%-i vergi borcları, 1,8%-i səyyar vergi yoxlamaları, 1,4%-i operativ vergi nəzarəti, 0,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,2%-i korrupsiya hüquqpozmaları, 16,2%-i isə digər məsələlərlə bağlı olmuşdur.

Ümumilikdə müraciətlərin 64,1%-i müsbət həll olunmuş, 19,2%-i üzrə müvafiq izahatlar verilmiş, 2,7%-i əsassız sayılmış, 0,7%-i qismən həll olunmuş, 0,4%-i aidiyyəti üzrə göndərilmiş, 12,7%-i icradadır.

Ay ərzində vergi orqanları tərəfindən 133 vətəndaş qəbul edilərək, onlara mövcud qanunvericilik çərçivəsində kömək göstərilmiş və ya müvafiq izahatlar verilmişdir.

Ötən ay vergilər naziri tərəfindən Ağdam şəhərində vətəndaşların qəbulu keçirilmişdir. Qəbula gəlmiş vətəndaşların müraciətləri əsasən vergi nəzarəti tədbirləri, vergi qanunvericiliyi və inzibatçılığının izah olunması, güzəştli şərtlərlə kredit alınmasına kömək göstərilməsi, maddi yardım edilməsi, sosial sığorta ödənişləri və s. məsələlərlə bağlı olmuşdur.

# Bakıda «Caspian Agro-2015» sərgisi keçiriləcək

*Sabah kənd təsərrüfatı təyinatlı məhsul və texnika istehsalçılarının iri regional forumu - 9-cu Azərbaycan Beynəlxalq Kənd təsərrüfatı («Caspian Agro 2015») sərgisi start götürəcək.*

Azərbaycanda «Kənd təsərrüfatı ili»nə təsadüf edən bu sərgi aqrar sənaye kompleksinin mütəxəssisləri, fermerlər, kənd təsərrüfatı məhsullarının distribüterləri, balıq təsərrüfatı və un istehsal edən zavodların sahibləri, habelə Azərbaycanda kənd təsərrüfatının inkişafına maraq göstərən və bu prosesdə fəal iştirak edən insanların görüş yerinə çevriləcək. Sərgidə kənd təsərrüfatı sahəsi üzrə yeniliklər, işgüzar əlaqələr, kənd təsərrüfatı sahəsinin yeni inkişaf mərhələsinə cəlb olunmuş dövlət təşkilatlarının nümayəndələri ilə görüşlər və xarici həmkarların təcrübəsi qida bazarında Azərbaycan kənd təsərrüfatı məhsullarının rəqabətədavamlı olmasına və investisiya həcminin artmasına kömək edəcək. İki gün davam edəcək sərgi Bakı Ekspo Mərkəzində keçiriləcək.

Sərgidə kənd təsərrüfatı məhsullarının sonrakı emalı üçün ən son avadanlıqlar, yemin hazırlanması və saxlanması üçün müasir texnika, o cümlədən mikroiqlimin dəstəklənməsi, enerji istehsalı və ətraf mühitim mühafizəsi üzrə texnika nümunələri və baytarlıq preparatları, heyvan və quşların saxlanma yerlərinin tikintisi üzrə layihələrlə yanaşı, heyvandarlıq proqramları, mal-qara sürüsünün reproduksiyası üzrə metodikalar və bir sıra digər məsələlər sərgi iştirakçılarının diqqətinə çatdırılacaq.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# İnnovasiya proseslərinin aktivləşdirilməsi strategiyası

Müasir dövrdə yeni qabaqcıl texnologiyaların tətbiq olunmasını, istehsalın səmərəliliyinin yüksəldilməsini təmin edən innovasiya proseslərinin aktivləşdirilməsinin optimal yollarının müəyyən olunması mühüm əhəmiyyət kəsb edir. Dünya iqtisadiyyatında inteqrasiya və qloballaşma proseslərinin sürətlə inkişaf etdiyi bir dövrdə innovasiya potensialından istifadə olunmasına və innovasiya proseslərinin aktivləşdirilməsinə əlverişli şəraitin yaradılması zəruridir. Bu isə müasir metodlara əsaslanan təşkilati və iqtisadi tədqiqatların aparılmasını tələb edir. Hazırkı dövrdə innovasiya fəaliyyəti əmək məhsuldarlığının artırılmasına yönəldilən tədbirlərin daha da gücləndirilməsində, milli iqtisadiyyatın fəaliyyət sahələri arasında yaranmış disproporsiyaların aradan qaldırılmasında əsas alətlərdən biri kimi çıxış edir.

Ümumiyyətlə, bazar iqtisadiyyatı şəraitində innovasiya proseslərinin idarə olunmasının vahid prinsipləri vardır ki, onların da metodoloji əsaslarını 1992-ci ildə Oslo şəhərində qəbul edilmiş beynəlxalq standartlar təşkil edir. Həmin standartlara görə, yeni yaradılmış və ya təkmilləşdirilmiş məhsul, eləcə də texnoloji proses innovasiya fəaliyyətinin son məhsulu kimi müəyyən edilir.

Təcrübə göstərir ki, innovasiya fəaliyyətinin daha səmərəli olması ilk növbədə onun maliyyə təminatının səviyyəsindən asılıdır. Beynəlxalq təcrübədə innovasiya fəaliyyətinin maliyyə təminatının əsas mənbələrindən biri kimi bank kreditləşməsi çıxış edir. Burada kredit verən təşkilat kimi təkcə banklar deyil, digər maliyyə təşkilatları, o cümlədən sığorta şirkətləri, investisiya fondları və şirkətləri, qeyri-dövlət pensiya fondları və başqa təşkilatlar da ola bilər. İnnovasiya fəaliyyətinə kreditlərin ayrılmasının aktivləşdirilməsində kredit ayıran təşkilatlara güzəştli vergi dərəcələrinin tətbiqinin böyük rolu ola bilər.

*İnnovasiya proseslərinin aktivləşdirilməsi strategiyasına əməl olunması nəticəsində milli təsərrüfatın rəqabətqabiliyyətliliyi artırılmaqla dövlət və biznesin qarşılıqlı faydaya əsaslanan əməkdaşlığı daha da möhkəmləndirilir*

Qeyd etdiyimiz amillər nəzərə alınmaqla, innovasiya proseslərinin aktivləşdirilməsinin strategiyası qurularkən aşağıdakılara əməl olunması vacib hesab edilir:

- iqtisadiyyatın elmi-texniki və innovasiya potensialının səmərəli inkişafına şərait yaradan sosial-iqtisadi, təşkilati və hüquqi tədbirlərin həyata keçirilməsi;
- dövlətin sosial-iqtisadi siyasətinin əsas prioritetlərinin müəyyən olunması və iqtisadiyyatın ayrı-ayrı sahələrinin, regionların və investorların biznes maraqlarının maksimum uzlaşdırılması;
- innovasiya və investisiya fəaliyyətini həyata keçirən müxtəlif təsərrüfat subyektləri arasında münasibətlərin qurulmasında dövlət tənzimlənməsindən istifadə olunması;
- innovasiyaların mənimsənilməsi üçün investisiya resurslarının mənbələrinin müəyyən edilməsi, tədbirlər kompleksinin hazırlanması və onların həyata keçirilməsi müddətlərinin müəyyənləşdirilməsi;
- dövlətin və iqtisadiyyatın ayrı-ayrı sahələrinin idarə olunmasında, plan və proqnozların müəyyənləşdirilməsində, innovativ inkişaf proqramının hazırlanmasında və həyata keçirilməsində vahid sistemin yaradılması.

İnnovasiya proseslərinin aktivləşdirilməsinin metodları həm də maliyyə, kredit və vergi sistemlərinə əsaslanmalıdır. İnvestisiya, maliyyə və kredit resursları akkumulyasiya olunmaqla əsas fikir maliyyə kredit sisteminin inkişafına, innovasiya müəssisələrinin investisiya resursları ilə təmin olunması məqsədilə banklar, dövlət və müəssisələr arasında əməkdaşlığın inkişaf etdirilməsinə, innovasiya layihələrinin həyata keçirilməsi üçün uzunmüddətli investisiya kreditləri verən bankların stimullaşdırılmasına verilməlidir.

İnnovasiya proseslərinin aktivləşdirilməsi üçün aşağıda göstərilənlər əsas sayıla bilər:

- innovasiya müəssisələrinin potensial investorlar və kommunikasiya-informasiya sisteminin inkişafını təmin edən elmi təşkilatlarla qarşılıqlı əlaqələrinin gücləndirilməsi;
- dövlət orqanlarının, elm, maliyyə və kredit təşkilatlarının, innovasiya müəssisələri və digər ölkələrin innovasiya strukturları ilə əlaqələrinin genişləndirilməsi;
- innovasiya layihələrinin transfer olunması və məlumat mübadiləsi əsasında innovasiyaların tətbiqinin səmərəliliyinin təmin edilməsi məqsədilə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi;
- güzəştlərin verilməsi, maliyyə mənbələrinin genişləndirilməsi hesabına innovasiya fəaliyyətinin maliyyələşdirilməsi və investisiya qoyuluşu səviyyəsinin artırılması;
- dövlət qulluqçularının və sahibkarların innovasiya fəaliyyətinin təşkili məsələləri üzrə bilik və peşəkarlıq səviyyələrinin artırılması məqsədilə mütəxəssislərin hazırlanmasının çoxmərhələli sisteminin yaradılması.

İnnovasiya proseslərinin aktivləşdirilməsi strategiyasına əməl olunması nəticəsində milli təsərrüfatın rəqabətqabiliyyətliliyi artırılmaqla dövlət və biznesin qarşılıqlı faydaya əsaslanan əməkdaşlığı daha da möhkəmləndirilir. Dövlətin elmtutumlu potensialının reallaşdırılması səviyyəsi yüksəlir, iqtisadiyyatın prioritet sahələri inkişaf edir, əhalinin məşğulluğu artır, müəssisələrin rentabelliyi yüksəlməklə büdcəyə vergi daxilolmaları artır, idxal edilən məhsullar azaldılmaqla ölkənin iqtisadi təhlükəsizliyi gücləndirilir, ətraf mühitin qorunması təmin edilir, elmi cəhətdən əsaslandırılmış nəzəriyyələr və konsepsiyalar formalaşdırılır.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vergi partnyorluğu sazişi

***Mən «Vergi partnyorluğu sazişi» bağlaya bilərəmmi? Ümumiyyətlə, vergi ödəyicisi həmin sazişi bağlamaq üçün hansı qaydada müraciət etməlidir?***

Vergi Məcəlləsinə (VM) əsasən, «Vergi partnyorluğu sazişi» vergi orqanı ilə vergi ödəyicisi arasında vergi risklərinin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır (maddə13.2.49). VM-in 13.2.48-ci maddəsində qeyd olunub ki, vergi risklərinin minimallaşdırılması ödəyicinin vergi hesablamalarının tam və ya qismən yerinə yetirməsinə mənfi təsirlərin azaldılması və ya aradan qaldırılmasıdır. 15.1.15-1-ci maddəyə müvafiq olaraq, ödəyicinin vergi risklərinin minimallaşdırılması məqsədi ilə «Vergi partnyorluğu sazişi» bağlamaq üçün müvafiq icra hakimiyyəti orqanının (Vergilər Nazirliyi) müəyyən etdiyi formada ərizə ilə vergi orqanlarına müraciət etmək hüququ, 23.1.15-2-ci maddəsində isə vergi orqanlarının vergi risklərinin minimallaşdırılması məqsədi ilə vergi ödəyiciləri ilə müvafiq icra hakimiyyəti orqanının (Nazirlər Kabineti) müəyyən etdiyi qaydada və formada «Vergi partnyorluğu sazişi» bağlamaq hüququ müəyyən edilmişdir.

Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli 190 nömrəli qərarı ilə «Vergi partnyorluğu sazişinin forması» (saziş) və «Vergi partnyorluğu sazişinin bağlanması Qaydaları» (Qaydalar) təsdiq edilmişdir.

Qaydaların 2.1-ci bəndinə əsasən, sazişin bağlanılması məqsədi ilə vergi ödəyiciləri Vergilər Nazirliyinin müəyyən etdiyi formada ərizə ilə vergi orqanına müraciət edirlər. Vergilər nazirinin 2013-cü il 2 iyul tarixli müvafiq əmri ilə «Vergi partnyorluğu sazişi» bağlamaq üçün «Ərizə forması» təsdiq edilmişdir.

Qaydaların 2.2-ci bəndinə müvafiq olaraq, vergi orqanı daxil olmuş müraciətə baxaraq 15 gün müddətində sazişin bağlanılmasının mümkünlüyü və ya bağlanılmasından imtina edilməsi barədə vergi ödəyicisinə yazılı məlumat verir. Qaydaların 2.3-cü bəndinə əsasən, vergi orqanı tərəfindən sazişin bağlanılmasından imtinaya səbəb olan hallar aşağıdakılardır:

- vergi ödəyicisinin Vergilər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı dövlət büdcəsi qarşısında öhdəlikləri olduqda;
- vergi orqanı tərəfindən vergi ödəyicisinin fəaliyyəti ilə bağlı həyata keçirilən nəzarət tədbirinin nəticəsi üzrə yekun qərar çıxarılmadıqda;
- vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsi (azaldılması) müəyyən edildikdə.

Qaydaların 2.4-cü bəndinə əsasən, sazişin bağlanılması məqsədi ilə müvafiq qaydada müraciət edən vergi ödəyicilərinin seçimi zamanı ilkin olaraq aşağıdakı vergi ödəyicilərinə üstünlük verilir:

- sertifikatlaşdırılmış proqram təminatı ilə mühasibat uçotu aparan vergi ödəyicilərinə;
- ƏDV ödəyicilərinə və maliyyə xidmətlərini həyata keçirən kredit və sığorta təşkilatlarına;
- vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edən vergi ödəyicilərinə;

alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə.

Qaydaların 2.6-cı bəndinə müvafiq olaraq, saziş VM ilə müəyyən edilən bütün vergi tutulan əməliyyatları və vergi növlərini əhatə edir.

Qaydaların 2.8-ci bəndinə əsasən, sazişi ləğv etməzdən əvvəl bu barədə qərarı qəbul etmiş tərəf 10 gün müddətində digər tərəfə niyyətini və əsaslandırılmış səbəbləri əks etdirən yazılı məlumat təqdim etməlidir.

Sazişin 5.1-ci bəndinə müvafiq olaraq, saziş ləğvetmə barədə məlumat təqdim edildiyi aydan sonrakı ayın 1-dən qüvvədən düşür.

Sazişin 5.2-ci bəndinə əsasən, vergi ödəyicisinin fəaliyyətinə xitam verildikdə və ya ləğv edildikdə, saziş həmin tarixdən qüvvədən düşmüş hesab edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Sahibkarlığa başlamaq üçün prosedurlar sadələşdirilib

Dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə həyata keçirilməsinə başlanılmasından sonra bu sahədə əhəmiyyətli dərəcədə canlanma müşahidə olundu. «Bir pəncərə» məlumatların vahid mərkəzdə cəmləşdirilməsinə, vergi qeydiyyatı da daxil olmaqla bütün inzibati dövlət qeydiyyatının tamamilə sinxronlaşdırılmasına gətirib çıxardı. Bunula da sahibkarlıq sektoruna maraq xeyli gücləndi, nəticədə ölkədə investisiya mühiti daha da yaxşılaşdırıldı, sahibkarların dövlət qurumlarından asılılığı azalaraq uzunmüddətli qeydiyyat prosedurlarına son qoyuldu.



«Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanuna edilmiş son dəyişiklikdə hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialının dövlət qeydiyyatına alınma müddəti 3 gündən 2 günə, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınma müddəti sürətli elektron dövlət qeydiyyatı zamanı 3 gündən dərhala, adi elektron dövlət qeydiyyatı isə 3 gündən 1 günədək azaldılıb.

Vergilər Nazirliyinin «bir pəncərə» prinsipi ilə dövlət qeydiyyatını həyata keçirməsindən bu il mayın 1-dək 381 min 957 fiziki şəxs və 39 min 179 kommersiya hüquqi şəxsi dövlət qeydiyyatına almışdır.

***Fiziki şəxslərin vergi uçotu***

Hazırda dövlət qeydiyyatından keçmək istəyənlər üçün prosedurlar sadələşdirilib. Vergi orqanında uçota alınmaq üçün xüsusi notarius fəaliyyəti ilə məşğul olmaq istəyən fiziki şəxs tərəfindən fəaliyyət göstərdiyi yer üzrə, digər fəaliyyətlə məşğul olmaq istəyən fiziki şəxs tərəfindən isə yaşadığı yer üzrə vergi orqanına bu sənədlər təqdim edilməlidir:

- fiziki şəxsin vergi uçotu haqqında ərizə;
- fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti;
- əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən isə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən ona verilmiş vəsiqə.

Sənədlər daxil olduğu gündən sonrakı iki gün müddətində vergi orqanı fiziki şəxsi ödənişsiz vergi uçotuna alır və vergi ödəyicisinə müvafiq şəhadətnamə verilir. Uçota dayanma zamanı verilən ərizədə fiziki şəxs digər məlumatlarla yanaşı, tətbiq edəcəyi vergitutma sistemi barədə məlumatı da qeyd edir və ödəyicinin vergi öhdəliklərinə uyğun olaraq, onun vergi mükəlləfiyyəti müəyyənləşdirilir. Vergi ödəyicisi qeydiyyata alınarkən ona vergi uçotuna alınmasını təsdiq edən şəhadətnamə və «Nəzarət kitabçası» təqdim olunur.

***Hüquqi şəxslərin dövlət qeydiyyatı***

Hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialının dövlət qeydiyyatı iki gündən gec olmayaraq yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı sürətli elektron dövlət qeydiyyatı zamanı dərhal, adi elektron dövlət qeydiyyatı zamanı isə bir gündən gec olmamaq şərtilə həyata keçirilir. Qeydiyyatın aparılması üçün tələb olunan sənədlərin siyahısı, habelə sənədlər təqdim edilməli olan vergi orqanları barədə və s. məlumatları daha ətraflı şəkildə Vergilər Nazirliyinin rəsmi internet səhifəsindəki «bir pəncərə» bölməsindən əldə emək mümkündür.

«Dövlət rüsumu haqqında» Qanuna əsasən, qeydiyyat zamanı dövlət büdcəsinə müəyyən məbləğdə dövlət rüsumu ödənilməlidir:

- banklar, birjalar, sığortaçılar, sığorta birlik və brokerləri, xarici hüquqi şəxslərin nümayəndəlikləri və filialları - 220 manat;
- kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən hüquqi şəxslər - 3 manat;
- digər hüquqi şəxslər - 11 manat. Hüquqi şəxslərin yenidən qeydiyyatı zamanı yuxarıda bu məbləğin yarısı qədər ödəniş edilir.

Hüquqi şəxs vergi orqanına verdiyi ərizədə digər sənədlərlə yanaşı, tətbiq edəcəyi vergitutma sistemi barədə məlumatı da qeyd edilməlidir. Ödəyicinin vergi mükəlləfiyyəti vergi öhdəliklərinə uyğun qaydada müəyyənləşdirilir.

***Fiziki və hüquqi şəxslərin onlayn qeydiyyatı***

Biznesin qeydiyyatı sahəsində aparılan dəyişikliklərin davamı olaraq, sahibkarların elektron qeydiyyat sisteminin tətbiqi Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə səbəb olub. Vergi ödəyicilərinin onlayn qeydiyyatı sisteminin tətbiqi hüquqi və fiziki şəxslərin vergi orqanlarına getmədən, vaxt itkisinə yol vermədən Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində istifadəçi kodu və şifrə-parol vasitəsilə uçota alınır. 18 yaşı tamam olmuş və şəxsiyyət vəsiqəsi alan hər bir Azərbaycan vətəndaşı dövlət qeydiyyatından onlayn rejimdə keçə bilər.

«Dövlət rüsumu haqqında», «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» qanunlara, Mülki Məcəlləyə və İnzibati Xətalar Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz aparılır. Bununla belə, dövlət qeydiyyatı zamanı Vergilər Nazirliyinə yanlış məlumatlar verilərsə, fiziki şəxslər 700 manat, hüquqi şəxslər isə 4000 manat məbləğində cərimələnə bilərlər.

Qanunvericiliyə edilmiş dəyişikliklərə görə, təqdim olunan elektron ərizənin yalnız gücləndirilmiş e-imza ilə təsdiq edilməsi nəzərdə tutulur. Elektron imza ilə təsdiqlənmiş elektron sənədlər əl imzası ilə imzalanmış və möhürlənmiş sənədlərə bərabər tutulur. Elektron imza xidmətləri üçün tariflər üç il müddətinə əhali üçün 30 manat, dövlət qurumları üçün 135 manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər üçün isə168 manat təşkil edir.

**Rəşad SADIQOV**

# «Vergilər» mövzusunda bilik müsabiqəsi

*May ayının 13-də Nəsimi rayonunda yerləşən 46 saylı orta məktəbdə Bakı şəhərinin orta məktəblərinin şagirdləri arasında vergilərlə bağlı biliklərin daha dərindən mənimsənilməsinin stimullaşdırılması məqsədilə 10-cu ənənəvi «Vergilər» bilik müsabiqəsi keçirilmişdir.*



Müsabiqədə 72 orta məktəbi təmsil edən 3 yaş qrupuna aid 3-5, 6-8 və 9-11-ci siniflərdə təhsil alan 70-dən çox şagird iştirak etmişdir. Test üsulu ilə keçirilən müsabiqə yekunlaşdıqdan sonra müvafiq yaş qrupları və siniflər üzrə 1, 2 və 3-cü yerlərin sahiblərinə diplom və qiymətli hədiyyələr təqdim edilmişdir.

Müsabiqədə I yaş qrupu (III-V siniflər) üzrə Sabunçu rayonu 309 saylı məktəbin 4-cü sinif şagirdi Hüseynli Elvin Zeynal oğlu 1-ci, Binəqədi rayonu 83 saylı məktəbin 4-cü sinif şagirdi Cəfərzadə Amin Anar oğlu 2-ci, Pirallahı qəsəbəsi 235 saylı məktəbin 5-ci sinif şagirdi Tarverdiyeva Şəms Yaşar qızı isə 3-cü yerə layiq görülmüşdür. II yaş qrupu (VI-VIII siniflər) üzrə Nərimanov rayonu 178 saylı məktəbin 8-ci sinif şagirdi Niftəliyeva Aysel Ustubad qızı 1-ci, Sabunçu rayonu 42 saylı məktəbin 8-ci sinif şagirdi Rəsulov Məhəmməd Mirənnağı oğlu 2-ci, Xətai rayonu 116 saylı məktəbin 8-ci sinif şagirdi Məmmədli Qədir Ceyhun oğlu 3-cü olmuşdur. III yaş qrupu (IX-XI siniflər) üzrə Səbail rayonu 239 saylı məktəbin 11-ci sinif şagirdi Rüstəmov Rüstəm Bəylər oğlu 1-ci, Sabunçu rayonu 67 saylı məktəbin 10-cu sinif şagirdi Budaqov Mikayıl Əhməd oğlu 2-ci, Suraxanı rayonu 141 saylı məktəbin 10-cu sinif şagirdi Hüseynov Fərid Məhəbbət oğlu isə 3-cü yerin sahibi olmuşdur.

# Vergidən yayınmanın müəyyənləşdirilməsində İKT-nin rolu

Bu gün dünya ölkələrinin vergi administrasiyalarını narahat edən başlıca məsələlərdən biri vergidən yayınma hallarıdır. Hazırda Avropadaxili Vergi Administrasiyaları Təşkilatında (IOTA) ən çox müzakirə olunan məsələlərdən biri də vergidən yayınma hallarının müəyyənləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarına (İKT) geniş yer verməkdir.

Vergidən yayınma hallarının müəyyənləşdirilməsində İKT-dən istifadəni genişləndirən Azərbaycan Respublikası Vergilər Nazirliyi bu istiqamətdə müxtəlif tədbirlər görür, beynəlxalq təcrübədə ən innovativ vasitələrdən hesab olunan «Forensic» məlumat bazasının tətbiqinə hazırlaşır. Bu məlumat bazası ilə bağlı beynəlxalq təcrübənin mənimsənilməsində yaxından iştirak edən Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin şöbə rəisi Emin Bəylərovun sözlərinə görə, informasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişafı vergidən yayınma hallarının müəyyənləşdirilməsində informasiya texnologiyalarından istifadənin aktuallığını önə çıxarır: «Son dövrlər ölkəmizdə elektron iqtisadiyyat qurucuğunun, o cümlədən elektron ticarətin genişlənməsi, fərdi sahibkarlar və müəssisələr tərəfindən malların (işlərin, xidmətlərin) təqdim edilməsində yeni imkanların yaradılması (elektron satış portalları, saytlar), müxtəlif biznes modellərindən istifadə edərək az xərclə effektiv və gəlirli sahibkarlıq fəaliyyətinin formalaşması bu sahədə məlumatların əldə edilməsində müəyyən problemlər ortaya çıxarır. Elektron vasitə üzrə aparılan əməliyyatlar zamanı vergi öhdəliklərinə könüllü şəkildə əməl edilməsi çətinləşir. Odur ki, vergidən yayınmaya qarşı üsulların və metodların dəyişməsi, informasiya texnologiyalarından geniş istifadə edilməsi olduqca zəruridir. Sahibkarlıq fəaliyyətini, həmçinin bu fəaliyyət üzrə vergidən yayınma ehtimalını (riskini) əks etdirən məlumatların müxtəlif serverlərdə, kompüterlərdə, informasiya daşıyıcılarında və virtual şəbəkələrdə saxlanılmasına xüsusi diqqət tələb olunur».

*Vergilər Nazirliyi beynəlxalq təcrübədə innovativ vasitələrdən hesab olunan «Forensic» məlumat bazasının tətbiqinə hazırlaşır*

«Forensic» - maliyyə təhqiqatı funksiyasını yerinə yetirən bir sistemdir. İKT texnologiyalarından istifadə etməklə cinayət xarakterli hadisələri dəqiq və obyektiv əks etdirən məlumatları aşkar etmək daha asandır. «Forensic» məlumat bazasından istifadə etməklə vergi ödəyicisi tərəfindən təqdim olunmuş məlumatların (bəyannamə, məktub və s.) vergi orqanında olan məlumatlarla müqayisəsini aparmaq mümkündür. Bundan əlavə, sistem mənbəyi bəlli olan məlumatlardan istifadəyə, həmçinin əməliyyat-axtarış fəaliyyəti üzrə məlumatların əldə edilməsinə imkan verir.

Şöbə rəisinin sözlərinə görə, sistemin güclü infrastrukturu və laboratoriyası mövcuddur. Laboratoriyadakı İKT avadanlıqları ən müasir proqram təminatı ilə təchiz edilib. Buradakı mobil avadanlıq vasitəsilə informasiyanın mobil telefon aparatlarından alınması, əldə olunmuş məlumatın kompüterə köçürülməsi həyata keçirilir. Laboratoriyanın fəaliyyəti çərçivəsində vergi ödəyicisinin ofisinə müstəqil və ya auditorla qrup şəklində daxil olmaq (bu zaman vergi ödəyicisi əvvəlcədən məlumatlandırıla və ya tədbir qəflətən keçirilə bilər) mümkündür. Qrupun rəhbəri vergi ödəyicisinə gəlişin səbəbini izah edir, zəruri sənədləri təqdim edir, laboratoriyanın əməkdaşları ofisdə olan avadanlıqların fotoşəklini çəkir, siyahısını tərtib edir və möhürləyir. Zərurət olan hallarda avadanlıqların ilkin informasiya daşıyıcılarının surəti çıxarılır, digər informasiya daşıyıcılarına köçürülür. Götürülmüş avadanlıqlardakı və informasiya daşıyıcılarındakı məlumatlar xüsusi proqramlar vasitəsilə adi sənəd standartlarına keçirilir, sonradan təhlil edilərək yekun hesabat hazırlanır və auditora təqdim olunur.

«Forensic» elektron auditin həyata keçirilməsində də ən yaxşı və səmərəli vasitə hesab olunur. Sistemin e-audit bölməsi üzrə vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti barədə vergi orqanında mövcud olan məlumatları xüsusi proqramlar vasitəsilə araşdırmaq, təhlil etmək və vergidən yayınma hallarını aşkar etmək mümkündür. E-auditin köməyi ilə hər hansı şirkətin maliyyə vəziyyətini əks etdirən əsas göstəricilərin nisbətlərinin təhlili nəticəsində vergidən yayınma risklərinin müəyyən edilməsi də asanlaşır.

Qeyd edək ki, hazırda ölkəmizin vergi sistemində «Forensic» üzrə mövcud infrastrukturun yaradılması və tətbiqinə başlanılması müzakirə olunur.

**Elbrus CƏFƏRLİ**

# İpoteka kreditləşməsi mexanizmi beynəlxalq standartlara uyğunlaşdırılır

*Mənzil maliyyələşdirilməsi sahəsində dövlət siyasətinin həyata keçirilməsində Azərbaycan İpoteka Fondu mühüm rol oynayır.*

İpoteka kreditlərinin verilməsi Mərkəzi Bank tərəfindən seçilmiş müvəkkil kredit təşkilatları tərəfindən həyata keçirilir. Azərbaycan İpoteka Fondu isə müvəkkil kredit təşkilatları tərəfindən verilmiş ipoteka kreditlərini yenidən maliyyələşdirir, bu istiqamətdə tələbləri müəyyən edir, maliyyə vəsaitlərinin cəlb olunması məqsədilə ipoteka ilə təmin olunmuş qiymətli kağızlar emissiya edir, öz fəaliyyətinin sabitliyini və likvidliyini təmin etmək üçün maliyyə risklərini idarə edir, ipoteka kreditləşməsi sahəsində likvidliyin təmin olunması və fonda ucuz maliyyə resurslarının cəlb edilməsi məqsədilə öz səlahiyyətləri daxilində tədbirlər həyata keçirir.



Hazırda ipoteka kreditləri adi və güzəştli şərtlərlə maksimum 50 min manat məbləğində verilir. Maksimal illik faiz dərəcəsi adi ipoteka kreditləri üçün 8%, güzəştli ipoteka kreditləri üçün 4%, maksimal müddət isə müvafiq olaraq 25-30 ildir. Adi ipoteka kreditlərində ilkin ödəniş 20%, güzəştli ipoteka kreditlərində isə 15%-dir. İpoteka kreditləri üzrə güzəştlərdən şəhid ailəsinin üzvünün, Milli Qəhrəmanın - özünün və ya ailə üzvlərinin, məcburi köçkün və ya ona bərabər tutulan şəxslərin, üç ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyən, elmlər namizədi və ya doktoru elmi dərəcəsi olan, idman sahəsində xüsusi xidmətləri olan şəxslərin istifadə etmək hüququ vardır.

Azərbaycan İpoteka Fondu ipoteka kreditləşməsi mexanizminin beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi məqsədilə informasiya texnologiyalarını geniş tətbiq edir. Vətəndaşların müraciətlərinin daha rahat təşkili üçün Elektron İpoteka Portalı istifadəyə verilib. Portal vasitəsilə elektron müraciətlərin qeydiyyatı həyata keçirilir, bundan başqa, portalda ipoteka kreditləşməsi üzrə normativ sənədlərlə, ipoteka kreditləşməsinin şərtləri, Azərbaycan İpoteka Fondunun müvəkkil təşkilatlarının siyahısı ilə tanış olmaq, eləcə də ipoteka kalkulyatorundan istifadə etmək mümkündür. İpoteka kreditindən yararlanmaq istəyən hər bir şəxs internet vasitəsilə real vaxt rejimində portalın veb səhifəsinə (www.e-ipoteka.az) daxil olub ipoteka kreditinin alınması üçün müraciət edə bilər. Müraciət etmək üçün ilk mərhələdə qeydiyyatdan keçərkən hər bir şəxs özünə dair bütün zəruri məlumatları daxil edir və həmin məlumatlar əsasında qiymətləndirilir. İpoteka kreditləri üzrə müraciətlərin real vaxt rejimində aparılması əhalinin rahatlığının təmin olunmasına, vaxt itkisinin qarşısının alınmasına, ipoteka kreditləşməsi sahəsində şəffaflığın artırılmasına, eləcə də fondun nəzarət mexanizminin gücləndirilməsinə xidmət edir.

**AYTƏN**

### 2015-ci ilin birinci rübünün yekunlarına görə...

Azərbaycan İpoteka Fondunun xətti ilə maliyyələşdirilən ipoteka kreditlərinin sayı 16318 olub. Rüb ərzində güzəştli ipoteka kreditlərinin sayı 3681 təşkil edib. Yenidən maliyyələşdirilən ipoteka kreditlərinin 137 milyon 482 min 900 manatı güzəştli, 443 milyon 247 min 710 manatı isə adi ipoteka kreditləri üzrə olub.

İpoteka kreditlərinin verilməsində Bakı şəhəri öndədir. Paytaxtın rayonlar üzrə bölgüsündə Xətai (22,3 %) , Yasamal (15,8%) və Binəqədi (14,1%) öndə gedir. Sonrakı yerləri isə Nəsimi (11,2%), Nizami (9,5%), Nərimanov (8,3%), Suraxanı (6,4%), Sabunçu (4,6%), Səbail (3,8%), Qaradağ (2,7%), Xəzər (1,2%) rayonları bölüşür.

Rüb ərzində ipoteka kreditlərinin maliyyələşdirilməsinin 39,3 faizi dövlət büdcəsi, 60,7 faizi isə qiymətli kağızlar hesabına baş tutub.

İpoteka kreditləri alanların aylıq gəlirlərinə görə bölgüsü isə belədir: aylıq gəliri 300 manat olan borcalanlar 2,7%, 300-500 manat olanlar 8,1%, 500-700 manat olanlar 19,4%, 700-900 manat olanlar 21,6%, 900-1100 manat olanlar 15%, 1100 manatdan yuxarı olanlar 33,3% təşkil edib. Borcalanların 32,5%-i subay, 67,5%-i isə evli vətəndaşlar olub. Kredit alanlar arasında qadınların nisbəti 17,5% təşkil edib.

İpoteka predmetinin növü üzrə nisbətin 6,7%-ni fərdi mənzil, 93,3%-ni isə çoxmənzilli binada fərdi mənzil təşkil edib.

Qeyd edək ki, ipoteka kreditinin məbləği kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən daşınmaz əmlakın bazar qiymətinin 80%-dən, ipoteka kreditləri üzrə ödəniləcək aylıq məbləğ borcalanın aylıq məcmu gəlirinin 70%-dən çox, kreditin son ödəniş tarixinə borcalanın yaşı isə qanunvericiliklə müəyyən edilmiş pensiya yaş həddindən çox olmamalıdır.

# Mərkəzləşdirilmiş Kredit Reyestri etibarlı məlumat mənbəyidir

Mərkəzi Bankda yaradılan Mərkəzləşdirilmiş Kredit Reyestrində (MKR) ölkənin bank sektorunda kredit öhdəliyi olan fiziki və hüquqi şəxslərin, məbləğindən asılı olmayaraq, bütün kreditləri haqqında məlumatlar saxlanılır. Bu məlumatlardan istifadə hüququ kredit müraciətçisini qiymətləndirmək məqsədilə yalnız banklara, bank olmayan kredit təşkilatlarına (BOKT), habelə haqqında məlumat toplanmış şəxslərə məxsusdur. Banklar və BOKT-lər MKR-dən cari və potensial borcalanları haqqında, fiziki və hüquqi şəxslər isə yalnız özləri haqqında məlumat ala bilərlər. MKR-də borcalanlar haqqında toplanan və əldə edilən məlumatlara Mülki Məcəllə və «Banklar haqqında» Qanunla müəyyən olunan bank sirri rejimi tətbiq edilir.

***MKR-dən məlumat əldə edilməsi***

Reyestrdə borcalanların həm aktiv, həm də tam ödənilmiş kreditləri haqqında məlumatlar saxlanılır. Məlumatların tərkibi borcalanın eyniləşdirmə göstəriciləri, kredit və kreditin təminatı haqqında məlumatlardan ibarətdir. Reyestrdə məlumatlar hər ayın ilk dörd iş günü ərzində yenilənir. Yeni verilmiş kreditlər isə iki iş günü ərzində MKR-ə göndərilir.

MKR-ə sorğular banklar və BOKT-lər tərəfindən cari borcalanlar haqqında sorğu edilən şəxsin razılığı tələb olunmadan, potensial borcalanlar və zaminlər haqqında isə yalnız barəsində sorğu verilən şəxsin imzaladığı yazılı razılıq əsasında edilir. Banklar və BOKT-lər MKR-dən məlumatları real vaxt rejimində elektron formada, borcalanlar isə sorğu əsasında əldə edə bilərlər. Banklar və BOKT-lər üçün hər bir sorğunun qiyməti hazırda 1 manatdır (2013-cü ilə qədər bu məbləğ 2 manat təşkil edirdi). Banklar və BOKT-lər istisna olmaqla, digər şəxslər MKR-dən məlumatları şəxsən və ya vəkalətli nümayəndəsi vasitəsilə müraciət etməklə, elektron imza ilə təsdiq olunmuş elektron formada müraciət etməklə və notariat qaydasında təsdiq olunmuş distant sorğu ilə əldə edə bilərlər.

Fiziki və hüquqi şəxslər özləri haqqında MKR-də olan məlumatları Mərkəzi Banka, habelə onun ərazi idarələrinə müraciət etməklə ala bilərlər. Fiziki və hüquqi şəxslərə özləri haqqında məlumatlar MKR-ə sorğunun daxil olduğu gündən üç iş günü ərzində təqdim edilir.

MKR-ə müraciət üçün fiziki şəxslər üzrə tələb olunan sənədlər bunlardır:

- müraciətçinin şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti;
- şəxs fərdi sahibkardırsa, onun VÖEN-ni əks etdirən sənədin surəti;
- şəxsin özü müraciət prosesində iştirak etməyəcəyi halda, onun qanuni nümayəndəsinin şəxsiyyətini və səlahiyyətini təsdiq edən sənədlərin əsli və surəti.

Hüquqi şəxslər üzrə tələb olunan sənədlər isə bunlardır:

- VÖEN-ni əks etdirən sənədin surəti;
- hüquqi şəxsi təmsil edən nümayəndənin şəxsiyyətini və səlahiyyətini təsdiq edən sənədlərin əsli və surəti.

Qeyd edək ki, fiziki və hüquqi şəxslər tərəfindən edilən sorğular ödənişsiz həyata keçirilir.

***Qeyri-dəqiq məlumatlardan şikayət etmək hüququ***

«Mərkəzləşdirilmiş Kredit Reyestrinin aparılması və istifadəsi Qaydaları»na görə, təchizatçılar MKR-ə təqdim olunan məlumatların dəqiqliyini təmin etməlidirlər. MKR-də olan məlumatlara hər hansı düzəliş yalnız təchizatçıların təqdim etdikləri məlumata əsasən aparılır. Hər bir şəxsin özü haqqında qeyri-dəqiq məlumatlardan Mərkəzi Banka şikayət etmək hüququ vardır. Fiziki və hüquqi şəxslərin şikayətlərinə Mərkəzi Bank tərəfindən baxılır və araşdırma tələb olunduqda şikayət məlumat təchizatçısına göndərilərək araşdırılması tələb edilir. Məlumat təchizatçısı tərəfindən şikayətə ən geci beş iş günü ərzində baxılır və şikayət əsaslı olduqda bank və ya BOKT həmin şəxsin kredit məlumatlarında dərhal müvafiq dəyişiklik aparır, şikayət əsassız olduqda isə bu barədə MKR-ə əsaslandırılmış cavab verilir.

***Birinci rübün göstəriciləri***

Bu ilin ilk üç ayı ərzində Mərkəzləşdirilmiş Kredit Reyestrindən 43 bank və 39 BOKT istifadə etmişdir. Dövr ərzində reyestrdə 853.284, o cümlədən banklar və BOKT-lər tərəfindən 805.319 sorğu həyata keçirilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə MKR-ə edilən sorğuların sayı 1,4 dəfə artmışdır. Rüb ərzində 47.965 şəxs öz kredit hesabatını əldə etmək məqsədilə MKR-ə müraciət etmişdir.

Rübün sonunda MKR-də haqqında məlumat toplanmış borcalanların sayı 2.389.292; kredit məlumatlarının sayı 9.483.441; cəmi zaminlərin sayı isə 1,109.476 olmuşdur. Bu statistikaya tam ödənilmiş kreditlər haqqında məlumatlar, habelə həmin məlumatların aid olduğu borcalan və zaminlər də daxildir.

**A.NƏBİYEVA**

# İqtisadi əlaqələrin genişləndirilməsi üçün mühüm müzakirə platforması

*Mayın 12-də Bakıda B20 Azərbaycan Regional Məsləhət Forumu keçirilib. Tədbirdə aidiyyəti dövlət qurumlarının, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 140-dan çox şirkətin nümayəndələri və təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.*

Tədbirə Türkiyə Respublikası Baş nazirinin müavini Ali Babacan, Türkiyə Palatalar və Birjalar Birliyinin sədri Rıfat Hisarcıklıoğlu, İqtisadi Əməkdaşlıq Təşkilatının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Biznes Şurasının səlahiyyətli nümayəndələri, Türkiyənin Kiçik və Orta Sahibkarlığın İnkişafı Təşkilatının, BMT-nin İnkişaf Proqramının Regional Mərkəzinin, Müstəqil Dövlətlər Birliyinin Maliyyə və Bank Şurasının nümayəndə heyətləri, Bolqarıstan, Yunanıstan və Rumıniyanın Ticarət və Sənaye Palatalarının rəhbər şəxsləri, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Rusiya Milli Komitəsinin nümayəndələri, Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresi Şurasının sədri və vitse-prezidenti, Gürcüstan Respublikasının İşəgötürənlər Assosiasiyasının prezidenti və digər ölkələrdən gələn nümayəndələr qatılıblar.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev bu tədbirin İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Biznes Şurası və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına daxil olan ölkələrin biznes təmsilçiləri üçün mühüm müzakirə platforması olduğunu vurğulayıb. Qeyd edilib ki, forum üzv ölkələrin iqtisadi əlaqələrinin genişləndirilməsi və biznes imkanlarının beynəlxalq aləmdə daha yaxşı təqdim olunması baxımından böyük əhəmiyyət kəsb edir.

G20-nin üzvü olan dövlətlərin biznesə dəstək qurumlarının liderlərini birləşdirən B20 12 prioritet mövzu üzərində təşkilatlanıb:

- İqtisadi siyasətlər;
- Maliyyə tənzimlənməsi;
- Beynəlxalq maliyyə sistemi;
- Əmtəə və xammal məhsulları;
- İnkişaf və ərzaq təhlükəsizliyi;
- Məşğulluq və sosial ölçü;
- Antikorrupsiya;
- Ticarət və investisiya;
- İnformasiya-kommunikasiya texnologiyası və innovasiya;
- Qlobal idarəetmə;
- Enerji;
- «Yaşıl inkişaf».

B20-nin əsas missiyası aktual iqtisadi prosesləri, çağırışların təhlili əsasında C20-yə müvafiq tövsiyələrin hazırlanıb təqdim edilməsidir.

Qeyd olunub ki, forumda müzakirə ediləcək aktual məsələlər iştirakçı ölkələrin ticarət, investisiya, infrastruktur, antikorrupsiya sahələrində beynəlxalq təcrübənin öyrənilməsi, sahibkarların maliyyə və məşğulluq istiqamətindəki birgə fəaliyyətinə öz töhfəsini verəcək və bu sahədə mövcud problemlərin aradan qaldırılmasına müsbət təsir göstərəcəkdir.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Biznes Şurasının baş katibi Məmməd Zülfüqarov bildirib ki, bu forumun nəticəsi olaraq tövsiyə və təkliflər hazırlanaraq Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri hökumətlərinə təqdim ediləcək.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev bildirib ki, yaşadığımız qloballaşma və texnoloji irəliləyiş kimi makro təmayüllər səylərimizi birləşdirməyi, mövcud əlaqələri genişləndirməyi tələb edir. Forumun yeni əlaqələrin yaradılması, əməkdaşlıq perspektivlərinin araşdırılması baxımından iştirakçı ölkələr üçün faydalı bir platforma olacağını diqqətə çatdıran R.Abdullayevin sözlərinə görə, Türkiyə Odalar və Borsalar Birliyinin rəhbərliyi dövründə B20 prosesi daha da inkişaf edəcək, iş dünyasının, qeyri-hökumət təşkilatlarının daha geniş dəstəyini qazanacaq, biznesi maraqlandıran önəmli məsələlər ətrafında ciddi fikir mübadiləsi aparılacaq, qlobal problemlərlə mübarizə istiqamətində önəmli addımlar atılacaqdır.

Tədbirin gedişində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Türkiyə Palatalar və Birjalar Birliyi strateji tərəfdaşlıq haqqında saziş imzalayıblar.

Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə Türkiyənin Azərbaycanı G20-yə qonaq ölkə qismində dəvət etməsinin dövlətlərimiz arasındakı yüksək strateji əməkdaşlığın və mehriban dostluq münasibətlərinin daha bir göstəricisi olduğunu xüsusi vurğulayıb.

TOBB Prezidenti Rıfat Hisarçıklıoğlu Azərbaycan-Türkiyə siyasi-iqtisadi əlaqələrinin strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini və əməkdaşlığın bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyini diqqətə çatdıraraq əlaqələrimizin dünyada nümunə olduğunu vurğulayıb. TOBB rəhbəri Azərbaycanın sürətli inkişafının onda dərin təəssürat yaratdığını ifadə edərək bildirib ki, ölkələrimizin mövcud potensialından istifadə etməklə iqtisadi əməkdaşlığın, o cümlədən ticarət əlaqələrinin inkişafı üçün geniş imkanlar var və bu sahədə özəl sektor mühüm rol oynayır. Bu baxımdan, iş adamları birlikləri, ticarət palataları arasında əlaqələrin genişləndirilməsi, sahibkarların iştirakı ilə müxtəlif formatlı tədbirlərin keçirilməsi əhəmiyyətlidir. R.Hisarçıklıoğlu Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığına, o cümlədən iş adamları arasında əlaqələrin genişləndirilməsinə dair fikirlərini bölüşüb. Türkiyənin Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP kimi iri enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı kimi Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğunu bildirən TOBB rəhbəri hazırda ölkəmizdə 3000-ə yaxın Türkiyə şirkətinin, Türkiyədə isə 1600-ə yaxın Azərbaycan şirkətinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirib ki, ölkələrin sosial-iqtisadi inkişafına maneələr yaradan problemlərin araşdırılaraq G20 sammitlərinin gündəliyinə çıxarılmasında B20 formatının rolu böyükdür. Bu platforma iqtisadiyyatın aparıcı qüvvəsi olan sahibkarlığın inkişafının geniş müzakirəsi, biznes cəmiyyətləri ilə qlobal siyasəti müəyyən edən qurumlar arasında əlaqələrin yaradılması üçün yaxşı fürsətdir. Hazırda Türkiyə 2023-cü ilədək dünyanın ən böyük on iqtisadiyyatı arasında yer almaq, adambaşına düşən milli gəliri iki dəfədən çox artırmaqla 25 min dollara yüksəltmək, ixrac həcmini üç dəfədən çox artırmaqla 500 mlrd. dollara çatdırmaq kimi iddialı hədəflərə doğru inamla irəliləyir: «Türkiyənin sədrliyi dövründə B20 platforması çərçivəsində G20-yə daxil olmayan ölkələrin qlobal biznes məsələlərinin müzakirəsinə cəlb olunması daha geniş vüsət alıb və artıq bir sıra ölkələrdə regional məsləhətləşmə forumları keçirilib».

Qeyd edilib ki, növbəti regional forumun Bakıda keçirilməsi ilə Azərbaycan da bu qlobal prosesə qoşulmuş olur. Bu tədbirin region ölkələrindən məhz Azərbaycanda keçirilməsi heç də təsadüfi deyil: «24 il öncə müstəqilliyini bərpa etmiş Azərbaycan sürətli iqtisadi inkişafa nail olmuş, bütün sahələrdə köklü islahatlar apararaq mərkəzləşdirilmiş planlı sistemdən bazar iqtisadiyyatına keçidi başa çatdırmış, böyük transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı olmuş, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmişdir». Qeyd olunub ki, iqtisadiyyatının inkişafı barədə vurğulanıb ki, son 10 ildə Azərbaycanda ÜDM üç dəfə, onun adam başına düşən həcmi 2,6 dəfə, sənayedə 3,6 dəfə, kənd təsərrüfatında 1,4 dəfə artıb, dövlət büdcəsinin gəlirləri 12 dəfə çoxalıb. Sahibkarlığın inkişafının Azərbaycan hökuməti üçün prioritet əhəmiyyət daşıdığını qeyd edən nazir bu sahədə təkmil qanunvericilik bazasının yaradıldığını, dövlət dəstəyi mexanizmlərinin formalaşdırıldığını, beynəlxalq təcrübədə uğurla sınaqdan çıxmış təşkilati-hüquqi modellərin, o cümlədən sənaye parklarının və məhəllələrin, aqroparkların, biznes inkubatorların və s. yaradılmasına başlanıldığını vurğulayıb: «Dövlət idarəetmə sistemində, məhkəmə və hüquq, korrupsiyaya qarşı mübarizə sahələrində ciddi institusional islahatlar aparılır, inzibati prosedurlar sadələşdirilir və şəffaf mexanizmlər tətbiq edilir. 2004-2014-cü illərdə ölkədə sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artmış, məşğulluqda özəl sektorun payı 73 faiz, vergi daxilolmalarında 70 faiz, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi təqribən 82 faiz təşkil etmişdir. İndiyədək ölkə iqtisadiyyatına 200 milyard dollar investisiya qoyulmuşdur».

Tədbir çərçivəsində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Moldova Sənayeçilərin və Sahibkarların Milli Konqresi arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Forum işini panellərlə davam etdirib.

**Fəxriyyə İKRAMQIZI**

# Ucar və Zərdab rayonlarında yeni xidmət mərkəzləri istifadəyə verilib

*Mayın 14-də 9 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə daxil olan Ucar və Zərdab rayonlarında müasir tələblərə cavab verən yeni vergi ödəyicilərinə xidmət mərkəzlərinin açılışı olmuşdur.*

Mərasimdə iştirak edən vergilər nazirinin müşaviri Ələkbər Məmmədov Azərbaycanda vergilərin könüllü ödənilməsi sisteminin və sahibkarlığın inkişafı, səmərəli dövlət-biznes münasibətlərinin qurulması istiqamətində görülən işlər və bu sahədə həyata keçirilən müxtəlif layihələr barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Qeyd edək ki, hazırda ölkəmizdə 56 xidmət mərkəzi fəaliyyət göstərir ki, onlardan da 42-si vergi orqanlarının inzibati binalarından kənarda yerləşir. Sahibkarların maarifləndirilməsini, vergilərə dair xidmətlərin göstərilməsini təmin edən xidmət mərkəzləri ödənişsiz fəaliyyət göstərir. Mərkəzlərdə quraşdırılmış özünəxidmət kompüterlərindən istifadə etməklə vergi ödəyiciləri müxtəlif növ vergi xidmətlərindən yararlana bilirlər.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədov hər iki rayon sakinlərinin əvvəllər olduğu kimi vergi məsələləri ilə bağlı Göyçay rayonunda yerləşən vergi orqanına müraciət etməsinə ehtiyacın qalmadığını, xidmət mərkəzlərinin funksional imkanlarının genişləndirildiyini, iş günü ərzində vergilərə aid bütün xidmətlərin burada fasiləsiz olaraq göstərildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, 2014-cü il ərzində xidmət mərkəzlərinə ümumilikdə 290 minə yaxın vergi ödəyicisi müraciət etmiş və onlara təxminən 376 min müxtəlif növ vergi xidmətləri göstərilmişdir.




# Borclu vergi ödəyiciləri

| Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon |
|---|---|---|
| Bakı VD | AĞAYEV AĞA ƏLİƏŞRƏF OĞLU | Bakı şəhəri Xətai rayonu |
| Bakı VD | İBRƏHİMOV KƏMİL NAZAR OĞLU | Bakı şəhəri Xətai rayonu |
| Bakı VD | «EXILES-STS» MMC | Bakı şəhəri Nizami rayonu |
| Bakı VD | «BİK TEXNİK» MMC | Bakı şəhəri Nizami rayonu |
| Bakı VD | «MOON-STAR LTD» MMC | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | «KONRAL» MMC | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | «BƏZZ» MMC | Bakı şəhəri Səbail rayonu |
| Bakı VD | QARABAĞLI RASİM QARAOĞLAN OĞLU | Bakı şəhəri Qaradağ rayonu |
| Bakı VD | «ROYAL İSTEYT» MMC | Bakı şəhəri Nəsimi rayonu |
| Bakı VD | HİDAYƏTOV YAQUB RAQUF OĞLU | Bərdə rayonu |
| Bakı VD | «SELVA» MMC | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | "BALANS-KS» MMC | Bakı şəhəri Yasamal rayonu |
| Bakı VD | OSMANOV AZƏR MÖHÜBBƏT OĞLU | Bakı şəhəri Xəzər rayonu |
| Bakı VD | «AZ.VEST-PROYEKT-R» MMC | Bakı şəhəri Binəqədi rayonu |
| Bakı VD | CAMALOV PƏRVİZ ABTALIB OĞLU | Bakı şəhəri Yasamal rayonu |
| Bakı VD | «R PALACE» MTK | Bakı şəhəri Nərimanov rayonu |
| Bakı VD | "BAKI NEFT-QAZ-MƏDƏN AVADANLIĞI ZAVODU" TÖRƏMƏ ASC | Bakı şəhəri Sabunçu rayonu |
| Bakı VD | «ÇAPÇI» MMC | Bakı şəhəri Nəsimi rayonu |
| Bakı VD | MOLLAYEV XALƏDDİN SUCƏDDİN OĞLU | Bakı şəhəri Xətai rayonu |
| Bakı VD | «TRANSQEYT» MMC | Bakı şəhəri Nərimanov rayonu |
| Bakı VD | «DELUXE-MSD» MMC | Bakı şəhəri Yasamal rayonu |
| 2 saylı ƏVD | «BİLLON» MMC | Abşeron rayonu |
| 2 saylı ƏVD | «TAFELİT» MMC | Abşeron rayonu |
| 3 saylı ƏVİ | «KASKAD KOM» MMC | Qusar rayonu |
| 4 saylı ƏVİ | «PAVO» MMC | Şamaxı rayonu |
| 4 saylı ƏVİ | «ATARİ» MMC | Şamaxı rayonu |
| 5 saylı ƏVİ | «ELVA R» MMC | Şirvan rayonu |
| 5 saylı ƏVİ | «AZTEK SERVIS» MMC | Şirvan rayonu |
| 5 saylı ƏVİ | «DIMAX SERVIS» MMC | Şirvan rayonu |
| 6 saylı ƏVİ | «ALYANS AZTEX» MMC | Masallı rayonu |
| 6 saylı ƏVİ | «AZ.TUR» MMC | Lənkəran rayonu |
| 10 saylı ƏVİ | «BAKI TEXNO SİTİ-60» MMC | Ismayıllı rayonu |
| 11 saylı ƏVD | «ATTIMO» MMC | Mingəçevir şəhəri |
| 11 saylı ƏVD | «BAKUTRADE» MMC | Mingəçevir şəhəri |
| 12 saylı ƏVD | «FLAMİNQO-1» FİRMASI | Göygöl rayonu |
| 12 saylı ƏVD | «FƏRİDOĞLU» MMC | Gəncə şəhəri |
| 13 saylı ƏVİ | «KORNET» MMC | Balakən rayonu |
| 13 saylı ƏVİ | «FULL HOUSE LIMITED» MMC | Balakən rayonu |

## vergi təqvimi

**MAY**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | **31** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 may – «(5)» və «6».
20 may – «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. Müəssisələr torpaq sahəsinin ölçüsünə və torpaq vergisinin dərəcələrinə əsasən torpaq vergisini illik olaraq hesablayır və may ayının 15-dən gec olmayaraq hesablamaları vergi orqanına verirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi**: Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hazırda müəssisələrin əksəriyyətində vergitutma məqsədli uçot aparılır, yəni aparılan uçot daha çox vergi uçotunun məqsədlərinə cavab verir. Vergi uçotunda isə maliyyə hesabatlarının təqdimedilmə tarixinə əsas vəsaitlərin qiymətləndirilməsi vacib məsələ kimi qəbul edilmir və bu səbəbdən də təsərrüfat subyektləri əsas vəsaitlərin (torpaq, tikili və avadanlıqların) yenidən qiymətləndirilməsi məsələsinə diqqətsiz yanaşırlar. Lakin hazırda qüvvədə olan Milli Mühasibat Uçotu Standartlarının tələblərinə görə müəssisələrdə torpaq, tikili və avadanlıqlar sinfinə aid edilə bilən bütün obyektlərin qiymətləndirilməsi vacib hesab olunur.

«Torpaq, tikili və avadanlıqlar üzrə» kommersiya təşkilatları üçün 7 №-li Milli Mühasibat Uçotu Standartının tələblərinə əsasən aşağıdakıları qeyd etmək olar və göstərilənlərə mühasiblərin mütləq əməl etmələri tövsiyə olunur:

**1. Torpaq, tikili və avadanlıqlar sinfinə aid olan uzunmüddətli aktivlər ilk dəfə balansda ilkin dəyəri ilə uçota alınmalıdır.**

7 №-li standartın 17-ci maddəsinin tələbinə görə torpaq, tikili və avadanlıq sinfinə aid edilə bilən yeni alınmış (qəbul edilmiş) aktiv mühasibat uçotunda ilkin əks etdirilməsi üçün bu standartın 18-ci maddəsində nəzərdə tutulan qaydada ilkin qiymətləndirilməlidir. 18-ci maddədə torpaq, tikili və avdanlıqların ilkin dəyərinin tərkib hissələrinin nələrdən ibarət olduğu göstərilmişdir.

**2. İlkin tanınmadan (ilk dəfə balansda uçota alınandan) sonra torpaq, tikili və avadanlıq obyektləri hər hesabat dövrünün (maliyyə ilinin) sonuna qiymətləndirilməlidir. Bunun üçün müəssisə torpaq, tikili və avadanlıq obyektlərini 2 modelə: ya ilkin dəyər, ya da yenidənqiymətləndirmə modelinə əsasən yenidən qiymətləndirdikdən sonra yeni müəyyən edilən dəyərlə balansda uçota almalıdır. Məhz bu dəyər maliyyə hesabatlarında açıqlanmalıdır.**

Standartın 31-ci maddəsində göstərilir ki, müəssisə torpaq, tikili və avadanlıq obyektlərini qiymətləndirmək məqsədilə öz uçot siyasətini ya 32-ci maddədə göstərilmiş ilkin dəyər modelinə, ya da 33-40-cı maddələrdə göstərilmiş yenidənqiymətləndirmə modelinə əsasən müəyyən etməli və həmin uçot siyasətini torpaq, tikili və avadanlıqların bütün sinfinə tətbiq etməlidir.

**3. Müəssisədə torpaq, tikili və avadanlıq obyektləri hesabat dövrünün (maliyyə ilinin) sonuna ilkin dəyər modelinə əsasən qiymətləndirildikdə aşağıda göstərilənlər nəzərə alınmalıdır:**

Standartın 32-ci maddəsinə görə torpaq, tikili və avadanlıqlar obyekti ilkin tanındıqdan (ilkin olaraq balansda uçota alınandan) sonra onun gələcək dövrlərdə yığılmış amortizasiya və qiymətdən düşmə üzrə zərərləri çıxılmaqla ilkin dəyəri ilə əks olunması tələb edilir. Yəni hər hesabat dövründə adi qaydada amortizasiya tətbiq olunur və aktiv hesabat tarixinə balansda ilk dəfə uçota alınan ilkin dəyərindən onun yığılmış amortizasiya dəyəri çıxılmaqla açıqlanır.

Lakin burada diqqət yetirilməli bir məqam var. Müəssisə hər maliyyə ilində amortizasiya tətbiq etdikdən sonra maliyyə ilinin sonunda aktivlərin balans (qalıq) dəyəri ilə bərpa oluna bilən dəyərini müqayisə etməlidir. Əgər balans (qalıq) dəyəri onun bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə, balans dəyəri bərpa oluna bilən dəyərə qədər silinməlidir.

4. Müəssisədə torpaq, tikili və avadanlıq obyektlərini hesabat dövrünün (maliyyə ilinin) sonuna yenidənqiymətləndirmə modelinə əsasən qiymətləndirdikdə aşağıdakılar nəzərə alınmalıdır:

Standartın 33-40-cı maddələrində göstərilir ki, yenidənqiymətləndirmə modelı tətbiq edilərkən 3 metoddan istifadə oluna bilər: birbaşa hesablama, gəlir və amortizasiya edilmiş əvəzlənmə dəyəri. Standartın bəzi maddələrinə diqqət yetirək:

**Maddə 33.** Aktiv kimi tanındıqdan sonra ədalətli dəyərlərinin müəyyən edilməsi mümkün olan torpaq, tikili və avadanlıqlar hər hansı yığılmış amortizasiya və qiymətdəndüşmə zərərləri çıxılmaqla yenidənqiymətləndirmə tarixinə onların ədalətli dəyəri olan yenidənqiymətləndirmə dəyəri ilə təqdim olunmalıdır. Bu standart çərçivəsində ədalətli dəyər yenidənqiymətləndirmə məqsədləri üçün fəal bazarın məlumatlarına istinadən müəyyən edilməlidir. Balans hesabatı təqdim olunduğu tarixə aktivin balans dəyərinin onun ədalətli dəyərindən kəskin fərqlənməməsi məqsədilə yenidənqiymətləndirmə kifayət qədər müntəzəm şəkildə həyata keçirilməlidir.

**Maddə 34.** Torpaq, tikili və avadanlıqların ədalətli dəyəri adətən bazar məlumatlarına əsaslanan dəlillərdən istifadə olunaraq qiymətqoyma üzrə peşəkar mütəxəssislər tərəfindən müəyyən edilir.

**Maddə 35.** Əgər torpaq, tikili və avadanlıqlara aid obyektlərin xüsusi təbiətli olduğundan və yaxud müəssisədən ayrı olaraq nadir hallarda satıldığından onların ədalətli dəyərini müəyyən etmək üçün bazar məlumatlarına istinad edən dəlil mövcud deyilsə, müəssisə gəlir və ya amortizasiya olunmuş əvəzlənmə dəyəri yanaşmasından istifadə edərək ədalətli dəyəri müəyyən edə bilər.

**Maddə 36.** Torpaq, tikili və avadanlıqlara aid obyektlər yenidən qiymətləndirildikdə, yenidənqiymətləndirmə tarixinə olan hər hansı yığılmış amortizasiya aktivin ümumi balans dəyərilə müxabirləşərək sıfıra bərabər edilir və beləliklə, aktivin xalis dəyərinin yenidən qiymətləndirilmiş dəyərinə bərabər olunması üçün ona düzəliş edilir.

**Maddə 37.** Əgər yenidənqiymətləndirmə nəticəsində aktivin balans dəyəri artarsa, onda bu artım yenidənqiymətləndirmə artımı başlığı altında birbaşa olaraq kapitalın kredit hissəsinə yazılmalıdır. Lakin əgər bu aktiv bundan əvvəl yenidən qiymətləndirilmişdisə və onun nəticəsində həmin aktiv üzrə balans dəyərinin azalması mənfəət və zərər haqqında hesabatda tanınmışdısa, bu zaman hər hansı sonrakı yenidənqiymətləndirmə artımı mənfəət və zərər haqqında hesabatda yalnız əvvəlki yenidənqiymətləndirmənin azalması müqabilində tanına bilər. Əvvəlki azalmalarla əvəzləşdikdən sonra yerdə qalan hər hansı yenidənqiymətləndirmə artımı birbaşa yenidənqiymətləndirmə artımı başlığı altında kapitalın kreditinə yazılmalıdır.

**Maddə 38.** Əgər yenidənqiymətləndirmə nəticəsində aktivin balans dəyəri azalarsa, bu zaman həmin azalma mənfəət və zərər haqqında hesabatda tanınmalıdır. Lakin əgər əvvəlki tarixlərdə aparılan yenidənqiymətləndirmə nəticəsində hər hansı yenidənqiymətləndirmə artımı yaranmışsa və bu artım yenidənqiymətləndirmə başlığı altında kapitalın kreditinə yazılmışsa, hər hansı növbəti hesabat tarixində yaranan azalma yenidənqiymətləndirmə hesabının kredit qalığı müqabilində həmin hesabın debetinə yazılmalıdır.

**Maddə 39.** Torpaq, tikili və avadanlıqlar obyektlə bağli müvafiq başlıq altında kapitala daxil edilmiş yenidənqiymətləndirmə artımı, aktivin tanınmasının dayandırılması zamanı bölüşdürülməmiş mənfəətə köçürülə bilər. Yenidənqiymətləndirmə artımı aktivin faydalı istifadə müddətinin tamamilə başa çatması nəticəsində silindiyi və ya sadəcə olaraq aktivin satıldığı zaman tam həcmdə bölüşdürülməmiş mənfəətə köçürülə bilər. Lakin buna baxmayaraq, artımın bir hissəsi müəssisə tərəfindən aktivin istifadə olunması zamanı da bölüşdürülməmiş mənfəətə köçürülə bilər. Belə olan halda, bölüşdürülməmiş mənfəətə köçürülmüş artımın məbləği aktivin yenidən qiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiyası ilə aktivin ilkin dəyəri əsasında tanınan amortizasiyası arasındakı fərqi təşkil edir. Yenidənqiymətləndirmə artımından bölüşdürülməmiş mənfəətə köçürmələr mənfəət və zərər haqqında hesabatda əks etdirilmir.

*Hörmətli oxucular, bir daha diqqətinizə çatdırmaq istəyirik ki, torpaq, tikili və avadanlıqlar sinfinə aid olan uzunmüddətli aktivlərin hesabat tarixinə qiymətləndirilməsi vacibdir və bu, qanunvericiliyin tələbidir. Yalnız vergi uçotunu təmin edən ikili yazılışların verilməsi ilə mühasibat uçotunu tam həyata keçirdiklərini hesab edən mühasiblərə tövsiyə olunur ki, yenidənqiymətləndirmə modellərindən istifadə etsinlər. Növbəti yazıda yuxarıda göstərilənlərə aid misallar üzərində verilən ikili yazılışlar təqdim olunacaqdır.*

beynəlxalq panoram

# Yunanıstan vergi yığımını vətəndaşlara həvalə edəcək

*Yunanıstan Maliyyə Nazirliyi tələbələr, evdar qadınlar və hətta turistlərin də vergi polisləri rolunda çıxış etməsini istəyir.*



Vətəndaşlar bu işi vergi orqanlarına kassa çeklərini verməyən ticarət obyektləri haqqında məlumat verməklə həyata keçirəcəklər. Vergi xidməti belə fəaliyyətlə məşğul olmağı arzu edənlərə müvəqqəti işçi müqavilələr təklif edəcək.

Hökumət könüllü «vergi komissarlarını» səsyazma avadanlığı və gizli müşahidə kameraları ilə təchiz edəcək ki, qanunları pozan biznesmenlər barəsində sübutları toplamaq mümkün olsun.

Ölkə müxalifəti solçu hökuməti həddən ziyadə populizmdə ittiham edib. Mərkəzçi və sağ partiyaların təmsilçilərinin fikrincə, hökumətin belə metodları yalnız vergidən yayınma ilə mübarizə aparılması görüntüsünü yaratmağa xidmət edir. Belə rəy yaradılır ki, problemləri xırda qanun pozuntusuna yol verən sahibkarlar yaşayacaq, əsl varlılar və böyük məbləğdə vergidən yayınanlar isə səs-küydən istifadə edərək öz kapitallarını daha da gizlətməyə çalışacaqlar.

# Litvanın vergi sistemi təkmilləşdirilir

*Litva Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi bəyan edib ki, Litva hökuməti «Vergi inzibatçılığının ağıllı sistemi»ni (i.MAS) yaratmağa və tətbiq etməyə dair qərar qəbul edib.*

Vergi xidmətindən verilən məlumata görə, 2016-cı ilin oktyabrına qədər i.MAS-ın yeddi altsistemindən üçünün (hesab-fakturalar - i.SAF, qaimələr - i.VAZ, risklərin təhlili, modelləşdirilməsi və idarəedilməsi mərkəzi - i.MAMC) tətbiqinə başlanılmalıdır.

Vergi xidmətinin rəhbəri vəzifəsini müvəqqəti icra edən Daynoras Bradauskas bildirib ki, vergi xidməti, ilk növbədə, i.SAF və i.VAZ alt-sistemlərini tətbiq etməyə başlayacaq. Bu zaman Estoniyanın vergi inzibatçılığı sahəsində təcrübəsindən istifadə ediləcək. Düşünülür ki, bu sistemlərin təsərrüfat əməliyyatlarının qeydiyyata alınmaması və saxta əməliyyatların miqyasının azaldılması istiqamətində, eləcə də ƏDV-nin ödənilməsindən yayınmaların qarşısının alınmasında köməyi olacaqdır.

Litvada vergi əməliyyatlarının müəyyən hissəsi artıq elektronlaşdırılıb. Məsələn, gəlirlər haqqında illik bəyannaməni vergi xidmətinin saytında, şəxsi virtual kabinetdə doldurmaq mümkündür. Vergi ödəyicisinin virtual kabineti bank hesablarının idarə olunmasına da imkan verir. Ölkədə, həmçinin, elektron imza sistemi də fəal şəkildə tətbiq olunmaqdadır.

# Moldovada yol vergisi arta bilər

*Nəqliyyat naziri Vasiliy Botnar bildirib ki, ölkədə yollardan istifadə üçün ödəmələrin 50% artırılması planlaşdırılır. Bu, hökumətin növbəti il üçün büdcə-vergi siyasəti layihəsində nəzərdə tutulur.*

Tariflərin artımını hökumət respublika yollarının bərpası üçün maliyyə vəsaitlərinin azlığı ilə izah edir. Büdcənin yol tikintisi xərclərini maliyyələşdirmək üçün yol vergisinin artırılması daha səmərəli hesab edilir. Nəzərdə tutulub ki, artım dövlət büdcəsinə ildə 231,9 milyon ley (100 moldova leyi = 5,75 ABŞ dolları) əlavə gəlir gətirə bilər.

V.Botnar bildirib ki, gələn ilin dövlət büdcəsi hazırlanarkən bu məsələ qaldırılacaq və o zaman ictimaiyyətə daha əsaslandırılmış məlumat veriləcək. Nazir sənədin müzakirəsi zamanı vergi tariflərinin dəyişə biləcəyini də istisna etməyib.



Xarici ölkələrin təcrübəsi

# Çin Xalq Respublikasının vergi sistemi: *mənfəət vergisi*

Qədim dünya sivilizasiyasının beşiyi hesab olunan Çin Xalq Respublikası (ÇXR) əhalisinə görə dünyada birinci, iqtisadiyyatına görə 2-ci, ərazisinə görə 4-cü yerdədir. 2015-ci ilin əvvəlinə ÇXR-də əhalinin sayı 1 mlrd. 356 mln., təkcə paytaxt Pekində 20 mln. nəfər olmuşdur. 2013-cü ildə ölkədə ÜDM-in həcmi 9,18 trln. ABŞ dolları, real artım 7,8%, inflyasiya 3,5% təşkil etmişdir. Ümumiyyətlə, rəsmi təsbit olunmuş qaydalara əsasən, Çində ÜDM-in illik real artımı 7%-dən az, illik inflyasiya isə 4%-dən yuxarı ola bilməz.

ÇXR-də vergi və digər ödənişlərin toplanması ilə Çin Dövlət Vergi Administrasiyası (DVA) məşğul olur. Ölkədəki vergi administrasiyasının yerli orqanları mürəkkəb quruluşa malikdir. DVA-nın əyalət səviyyəsində (muxtar regionlar, birbaşa mərkəzi hökumətə tabe olan bələdiyyələr), prefektura səviyyəsində (rayonlara bölünmüş şəhər, muxtar prefektura, birlik) və dairə səviyyəsində (şəhər) ofisləri fəaliyyət göstərir.

1994-cü ildə mərkəzi və yerli hökumət arasında maliyyə intizamını gücləndirmək, milli maliyyə sisteminin funksional rolunu artırmaq, mərkəzi hökumətin makro-nəzarət qabiliyyətini gücləndirmək, sosialist bazar iqtisadiyyatı sistemini və dövlət iqtisadiyyatının davamlı, sürətli və sağlam inkişafını təmin etmək məqsədilə ölkədə milli vergi gəlirlərinin bölüşdürülməsi adlandırılan maliyyə nəzarəti sistemi tətbiq olunmağa başlanmışdır. Əməkdaşlarının sayı 757 min nəfər təşkil edən DVA-nın xətti ilə 2013-cü ildə 1,8 trln. ABŞ dolları həcmində vergi toplanmışdır.

ÇXR-də mürəkkəb vergi sistemi mövcuddur və əsas mərkəzi vergi növlərinə ƏDV, istehlak vergiləri, avtomobil alqısı vergisi, sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərdən vergi, müəssisələrin mənfəət vergisi, şəhər təmir və tikinti vergisi daxildir.

Çində yerli və xarici müəssisələr öz mənfəətlərindən mənfəət vergisinə cəlb olunurlar. Vergiyə cəlb olunan mənfəət hesablanarkən kapital gəlirləri nəzərə alınır və ayrıca vergitutma subyekti hesab olunmur.

Mənfəət vergisinin ödəyiciləri Çində gəlir əldə edən və nəticədə vergi öhdəliyi daşıyan müəssisə və ya təşkilatlardır. Xarici investisiyalı müəssisə dedikdə, Çin-xarici kapitallı birgə müəssisələr, Çin-xarici müqavilə əsasında fəaliyyət göstərən birgə müəssisələr və xarici müəssisələr nəzərdə tutulur. Xarici müəssisə xaricdə və ya xarici ölkələrin qanunvericiliyinə uyğun olaraq yaradılmış, Çində nümayəndəliyi olan və ya olmayan müəssisədir.

2008-ci il yanvarın 1-dən xarici investisiyalı müəssisələr və xarici müəssisələr Çinin yerli müəssisələri ilə eyni qaydada vergiyə cəlb olunurlar. Ortaqlıqlar vergiyə cəlb edilən ayrıca müəssisə hesab olunmur və onların hər biri ayrılıqda vergiyə cəlb edilir. «Müəssisələrin mənfəət vergisi haqqında» Qanun Çində yerli ortaqlıqlar və ya fərdi özəl müəssisələrə şamil olunmasa da, ölkədə gəlir əldə edən xarici ortaqlıqlar və fərdi özəl müəssisələrə tətbiq olunur.

«Müəssisələrin mənfəət vergisi haqqında» Qanuna əsasən, rezident müəssisə aşağıdakı kimi xarakterizə edilir:

- Çin qanunvericiliyinə əsasən yaradılmış və ya qeydiyyatdan keçmiş müəssisələr;
- xarici ölkələrin qanunvericiliyinə əsasən və ya xüsusi regionlarda (məsələn, Honq Konq, Makao) yaradılmış, lakin faktiki idarəetmə yeri Çində olan müəssisələr.

Rezident müəssisələr ümumdünya gəlirləri üzrə mənfəət vergisinin ödəyiciləridir. Qeyri-rezident müəssisələr isə yalnız Çin mənbəyindən əldə etdiyi gəlirlər üzrə vergiyə cəlb olunurlar.

Müəssisələrin mənfəət vergisi «vergiyə cəlb olunan mənfəətdən» tutulur. Vergiyə cəlb olunan mənfəət ümumi mənfəətin vergiyə cəlb olunmayan mənfəət, vergidən azad olunan mənfəət, mənfəətdən çıxılmalar və əvvəlki illərin kompensasiya edilməmiş zərərləri qədər azaldılmış hissəsidir. Vergiyə cəlb olunan mənfəət toplama metodu əsasında hesablanır. Lakin rezident və qeyri-rezident müəssisələr müəyyən hallarda ehtimal edilən əsasda vergiyə cəlb oluna bilər.

Ümumi mənfəətə ticarət gəliri, xidmətlərin göstərilməsindən əldə olunan gəlir, əmlakın təqdim edilməsindən gəlir, dividendlər, bonuslar və digər investisiya gəlirləri, faizlər, icarə haqqından gəlirlər, royalti, ianələr, digər gəlirlər daxildir.

Mənfəətin aşağıdakı növləri vergiyə cəlb olunmur:

- hökumət tərəfindən ayrılmış maliyyə vəsaitləri;
- inzibati qaydalara əsasən tutulmuş yığımlar və dövlət rüsumları;
- Dövlət Şurası tərəfindən müəyyən edilmiş vergiyə cəlb olunmayan digər mənfəət.

Vergidən azad olunan mənfəətə isə aşağıdakılar daxildir:

- ♦ dövlət istiqrazlarından faizlər;
- ♦ şirkətlər tərəfindən ardıcıl 12 aydan az müddətdə saxlanılmış səhmlərin açıq satışından əldə olunan dividendlər istisna olmaqla, digər rezident müəssisələrdən alınmış dividendlər;
- ♦ ixtisaslaşmış qeyri-kommersiya təşkilatlarının gəlirləri, o cümlədən:
  - müəssisə və fərdi şəxslərdən alınmış ianələr;
  - dövlət subsidiyaları (müəyyən istisnalar mövcuddur) və dövlətə göstərilmiş xidmətlərdən əldə edilən gəlirlər;
  - mülki işlər və ya maliyyə departamenti tərəfindən, əyalət səviyyəsindən yuxarı səviyyədə qəbul edilmiş qaydada tutulan üzvlük haqları;
  - vergiyə cəlb olunmayan/vergidən azad gəlirlər üzrə bank əmanətlərindən faizlər;
  - Maliyyə Nazirliyi və DVA tərəfindən müəyyən edilmiş digər gəlirlər.

**Çində 2004-2013-cü illərdə ümumi vergi daxilolmaları və mənfəət vergisi üzrə daxilolmalar (mlrd. ABŞ dolları ilə)**




*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Quba rayonunda kənd; 2.Uçan cismin dəyib yana sıçraması (səkdirmə); 3.Möhkəm parlaq pambıq parça; 4.Rusiyada çay; 5.Gözəl iri gülləri olan su bitkisi; 6.Ödənişlə bir şeydən istifadə hüququnun başqasına verilməsi; 9.Kişi adı; 13.Qabığı tüklü, içi yaşıl, turşməzə tropik meyvə; 15.Qədim yunan və Roma mifologiyalarına görə şəfa tanrısı; 16.Gözü işıqdan qorumaq üçün lampaya keçirilən örtük, qalpaq; 17.Təknəvari quruluşa malik gəmi, su nəqliyyatı vasitəsi. Həmçinin türk pop müğənnisinin soyadı; 18.Acı badam iyi verən rəngsiz uçucu maye; 20.Rusiya Rəssamlıq Akademiyasının prezidenti. UNESCO-nun xoşməramlı səfirinin adı; 21.Modern üslubda çalışan yunan arxitektorunun soyadı, açıq səmada Likavit teatrının müəllifidir. **Soldan sağa:** 1.Azərbaycan klassik bəstəkarı, dirijor, librettoçu, Azərbaycanın xalq artistinin adı. Bir sıra opera, balet, orkestr və tamaşaların müəllifi; 5.Samux rayonunda kənd; 7.Dərman və otların qarışığı nəticəsində alınan dərman forması; 8.Mərakeşdə şəhər; 10.Bizim eranın I-III yüzilliklərində Orta Asiya, Əfqanıstan, Pakistan və Şimali Hindistan ərazilərində mövcud olmuş qədim dövlət; 11.Yunan mifologiyasında qəhrəman və İtaka çarı; 12.Rusiyanın Perm vilayətində çay; 14.Ölkəmizdə teleradio şirkəti; 19.Bakının Xəzər rayonunda qədim qəsəbə; 21.Sayğacı olan minik və ya yük avtomobili; 22.Əsasən peyzajları ilə məşhur olan Fransa rəssamının soyadı; 23.Spirt əsaslı kosmetik maddə kimi işlədilən ətirli məhlul; 24.İlin üç ayı; 25.Populyar nəqliyyat vasitəsi və idman növü.



*Gözəl iri gülləri olan su bitkisi*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Oraban; 2.Lümbaqo; 3.Nonet; 4.Ataman; 5.Kuliç; 6.Küveyt; 9.Opus; 13.Quba; 15.Abandon; 16.Dirhəm; 17.Ahıska; 18.Maurer *(Hubert)*; 20.Temir *(xan)*; 21.«İrəli». **Soldan sağa:** 1.Oğlanqala; 5.Kök; 7.Ammonyak; 8.Alov; 10.Azart; 11.Arpaçay; 12.Volqa; 14.Oskar; 19.İntibah; 21.İtaka; 22.Himn; 23.İsgəndər; 24.Mer; 25.Stasionar.


Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14000**

## idman

# Növbəti Avropa Oyunlarına Niderland ev sahibliyi edəcək

*2019-cu ildə keçiriləcək ikinci Avropa Oyunları Niderland Krallığında baş tutacaq. Bu qərar Avropa Olimpiya Komitəsinin (AOK) Türkiyənin Bələk şəhərində keçirilən Baş Assambleyasında qəbul olunub.*

AOK-a üzv olan 50 Milli Olimpiya Komitəsinin təmsil olunduğu tədbirdə Niderland Olimpiya Komitəsinin təmsilçiləri geniş təqdimatla çıxış ediblər. AOK-un prezidenti Patrik Hikki ikinci Avropa Oyunlarına ev sahibliyi etmək hüququ qazanması münasibətilə Niderland təmsilçilərini təbrik edib və yarışların yüksək səviyyədə təşkil olunacağına əminliyini vurğulayıb. P.Hikki deyib ki, tarixdə ilk Avropa Oyunları Azərbaycanda təşkil olunacaq və paytaxt Bakı artıq bu mötəbər yarışa tam hazırdır. İyunun 12-dən 28-dək bütün dünyanın diqqəti məhz Azərbaycana yönələcək.

Xatırladaq ki, birinci Avropa Oyunlarının keçirilməsi barədə qərar 2012-ci il dekabrın 8-də AOK-un Romada keçirilən 41-ci Baş Assambleyasında qəbul edilib. Məhz həmin tədbirdə 2015-ci ildə keçiriləcək ilk Avropa Oyunlarına ev sahibliyi etmək hüququ Bakı şəhərinə verilib. «Bakı-2015» ümumilikdə idmanın 20 növü üzrə keçiriləcək. Onlardan 16-sı Olimpiya, 4-ü isə digər idman növüdür. İdmanın 12 növü 2016-cı ildə Rio-de-Janeyroda keçiriləcək Olimpiya Oyunlarına lisenziya qazandıracaq. İlk Avropa Oyunlarında Avropanın müxtəlif ölkələrindən 6 mindən artıq idmançı 17 yarış günündə 253 dəst medal uğrunda mübarizə aparacaq.

# Yeniyetmələr arasında respublika çempionatına start verildi

***«Sərhədçi» İdman Olimpiya Mərkəzində yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı başlayıb. Yarışda güləşçilər Dünya Güləş Birliyinin qaydalarına əsasən 42, 46, 50, 54, 58, 63, 69, 76, 85 və 100 kiloqram çəki dərəcələrində mübarizə aparırlar.***

Qeyd edək ki, çempionatda iştirak etmək üçün Azərbaycan Güləş Federasiyasının sərbəst və yunan-Roma güləşi üzrə nümayəndəlikləri üzrə seçim turnirləri keçirilib. 1285 yeniyetmə güləşçinin mübarizə apardığı seçim turnirlərində 743 nəfər sərbəst, 542 nəfər isə yunan-Roma güləşi üzrə yarışlarda qüvvələrini sınayıblar. Nümayəndəliklər üzrə qalib gəlmiş güləşçilər ayrılmış yerə uyğun olaraq Azərbaycan çempionatında iştirak hüququ əldə ediblər.



# Avropa Oyunlarında ölkəmizi təmsil edəcək velosipedçilərin adları məlum olub

## *Xızıda velosiped idmanının şose növü üzrə kişi və qadınlar arasında Azərbaycan çempionatına yekun vurulub*

Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən təşkil edilən yarışda «Synergy Baku»da çıxış edən velosipedçilərimiz də daxil olmaqla, yığma komandalarımızın bütün üzvləri mübarizə aparıblar. Yarışın keçirilməsində əsas məqsəd «Bakı-2015» ilk Avropa Oyunlarında iştirak edəcək heyəti müəyyənləşdirmək olub.

Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) təqviminə əsasən iyunun sonlarında keçirilməli olan yarışın ertələnməsi «Bakı-2015» ilk Avropa Oyunları ilə əlaqədardır. Gələn ay ölkəmiz mötəbər yarışa ev sahibliyi edəcəyindən, federasiya Azərbaycan çempionatının mayın ortalarında keçirilməsinə razılıq verib.

İlk yarış günündə Elit kateqoriyada iştirak edən velosipedçilər 40 km məsafəyə fərdi ötüşmədə mübarizə aparıblar. Mayın 15-də keçirilən qrup yarışlarında 128 km məsafə qət edən velosipedçilər dəniz səviyyəsindən 1200 metr hündürlükdə finiş xəttini keçiblər. Yarışın dağlıq hissəsində rəqiblərindən xeyli aralanan Maksim Averin və ötənilki ölkə çempionu Elçin Əsədovun mübarizəsində Maksim birinci olub və bununla da o, Azərbaycan çempionu adını qazanıb. Elçin Əsədov 2-ci, Samir Cəbrayılov isə 3-cü olub. Beləliklə, hər üç idmançı ilk Avropa Oyunlarının şose velosipedi növündə ölkəmizi təmsil etmək hüququ qazanıblar.



Yeri gəlmişkən, ölkə çempionatının nəticələri Beynəlxalq Velosipedçilər İttifaqının reytinq siyahısında da nəzərə alınır: ilk 3 yerdə qərarlaşan velosipedçilərin aktivinə müvafiq olaraq 40, 30 və 16 xal əlavə olunacaq. Bu isə 2016-cı ildə Braziliyada keçiriləcək Yay Olimpiya Oyunlarında iştirak üçün olduqca önəmlidir. Hazırda velosipedçilərimizdən ən yüksək reytinq Maksim Averinə məxsusdur. Bunadək iştirak etdiyi yarışlarda 78 xal toplayan idmançımız, Azərbaycan çempionu olmaqla, xallarının sayını 118-ə çatdırıb.

Çempionatda daha uğurlu çıxış edən qadın şose velosipedçilərimiz Yelena Pavluxina və Ülfət Nəzərova «Bakı-2015» ilk Avropa Oyunlarında ölkəmizi təmsil edəcəklər.

## mozaika

texnologiya




# «Ağıllı» corablar

**«Sensoria Fitness Socks» şirkəti tərəfindən hələ «CEC - 2014» beynəlxalq istehlak sərgisində nümayiş etdirilmiş «ağıllı» corablar artıq satışa çıxarılıb.**

Corablara quraşdırılmış sensorlar sürət, temp, sərf edilmiş kalorini ölçür. Bundan başqa, «ağıllı» corablar daxili GPS modula malikdir və hərəkət marşrutunu izləyir. Bu corablar topuğa taxılan qurğu ilə birgə tədarük olunur. Həmin qurğu biometrik məlumatları toplayaraq smartfona ötürür. «Sensoria Fitness Socks» corabları iOS, Android və Windows Phone platformaları üçün mobil proqramlarla birgə işləyir.

Hazırda «ağıllı» corabların satış qiyməti 199 dollardır. Satış hələlik onu icad və istehsal edən şirkətin rəsmi saytı üzərindən həyata keçirilir. İstehsalçı söz verib ki, yaxın gələcəkdə bu corabları bir çox internet mağazalarından da almaq mümkün olacaq.

maraqlı

# Üzən şəhər ideyası gerçəkləşir

San-Fransiskoda yerləşən Dəniz Aləmi İnstitutu dünyanın ilk üzən şəhərinin tikintisi və beynəlxalq səviyyədə hüquqi təsdiqi ilə bağlı hazırlıq işləri aparır. Kaliforniyanın «KPCC» radio şirkətinin məlumatına görə, dənizdə bəşəriyyətin yeni yaşayış yeri artıq 2020-ci ilədək reallaşa bilər.



İnstitut mütəxəssisləri üzən şəhər ideyası üzərində bir neçə ildir çalışırlar. Onlar internet vasitəsilə layihəyə maraq göstərən insanlar arasında vəsait toplayırlar.

Alimlər tərəfindən yaradılan şəhər konsepsiyası bir neçə ideyaya əsaslanır: şəhər ərazisi 50 kvadratmetr təşkil edən kvadrat modullardan ibarət olacaq. Modulun hər birinin inşasına 15 milyon dollar xərclənəcəyi gözlənilir.

On bir belə modul-platformadan ibarət blokda bina tikiləcək. Mənzillərin, eləcə də xidməti və ictimai obyektlərin yerləşəcəyi binada bir kvadratmetrin qiyməti 5425 dollar təşkil edəcək. Blokda sakinlərin sayı 225-300 nəfər olacaq. Bununla yanaşı, 50 nəfərlik hotelin tikintisi də planlaşdırılır. Qeyd olunur ki, bir blokun qiyməti 170 milyon dollara başa gələcək.

İnstitut əməkdaşlarının sözlərinə görə, siyasi və sosial baxımdan avtonom yaşayış yeri olacaq üzən şəhərin öz iqtisadiyyatı və vergi sistemi olacaq. Hazırda mütəxəssislər üzən şəhərin hüquqi statusunu müəyyənləşdirən müvafiq beynəlxalq sazişin hazırlanması ilə məşğuldurlar. Hazırda Sakit okeanın bir sıra ada dövlətləri ilə şəhərin yaradılması ilə bağlı ilkin məsləhətləşmələr aparılır.



sağlam həyat tərzi

# Beynin fəaliyyətinin yaxşılaşdırılması üçün...

Bəzi qida məhsulları beynin fəaliyyətinə xeyli müsbət təsir edir. Omeqa-3 yağlı turşular bu baxımdan önəmlidir. Bu turşular balıqda daha çoxdur. Beyin üçün fenilalanin amin turşusu əvəzolunmaz sayılır. Fenilalanin ətdə, balıqda, yumurtada, süddə, kəsmikdə, xamada var.

Digər amin turşusu triptofan beyin hüceyrələrinin qocalmasının qarşısını alır. Triptofan hind quşu və toyuq əti, banan, qoz, fındıq, badam kimi məhsullarda olur.

Lizin aminturşusu isə təfəkkürü aktivləşdirir. Bu maddə acı şokoladın, kakaonun, qoz, fındıq, badam, araxis, cücərdilmiş buğda, lobya, noxud və s. kimi məhsulların tərkibinə daxildir.

Beyn üçün şirin qidalar da faydalıdır. Qlükoza beynin normal fəaliyyəti üçün ən vacib maddələrdəndir. Bu maddəni bal, şirin meyvələr, quru meyvələr kimi faydalı məhsullardan almaq məsləhət görülür. Beyni nə qədər çox yükləsəniz, o qədər yaxşı işləyəcək. Bu, təsdiq olunmuş qaydadır. Təbii ki, söhbət həddən artıq yükləmələrdən getmir. Beyninizi daim məşq etdirin - kitab oxuyun, xarici dil, şeir öyrənin, krossvord həll edin, şahmat oynayın.

Bütün ömrünü elmi axtarışlara həsr etmiş alimlərin beyni qoca yaşlarına kimi sağlam və cavan qalır. Beynin normal fəaliyyəti üçün ona kifayət qədər oksigen lazımdır. Hər gün 1-2 saat açıq havada olun. Fiziki aktivlik, idman orqanizmdə, o cümlədən beyində qan dövranını yaxşılaşdırır. Kifayət qədər (sutkada 7-8 saat) yatın. Az yatan insanların yaddaşı və diqqəti zəifləyir.

Beynin fəaliyyətini yaxşılaşdıran xüsusi dərman preparatları - «nootrop» mövcuddur. Lakin həkimlər hesab edirlər ki, bu preparatları sağlam insanlara (xüsusilə də sağlam uşaqlara) təyin etmək düzgün deyil. Bunların əksəriyyəti beyin funksiyalarının ciddi pozulmaları olan insanlar üçün nəzərdə tutulub.

Beyin fəaliyyətini yaxşılaşdıran təbii vasitə - qinko biloba bitkisidir. Bu bitki beynin fəaliyyətini stimullaşdırır. Bitkinin tərkibində çoxlu sayda təbii nootrop mövcuddur. Özünüzdə beyin fəaliyyətinin zəiflənməsini hiss etdikdə, həkimlə məsləhətləşdikdən sonra bu preparatı qəbul edə bilərsiniz.



**İnsan beyninin normal fəaliyyəti üçün sağlam və düzgün qidalanma çox vacibdir**

# Şifahi nitqi mətnə çevirən sistemin yeni versiyası

texnologiya

***Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin «Dilmanc» layihəsi şifahi nitqi mətnə çevirən «Dilmanc imla» sisteminin yeni versiyasını istifadəyə verib.***

Əvvəlki versiyadan fərqli olaraq, proqramın yeni versiyası smartfon tipli mobil telefonu mikrofon kimi istifadə etməyə imkan yaradır.

Proqramın istifadə qaydası çox sadədir. «Dilmanc imla» yükləndikdən sonra kompüterə yazılmış proqramın təklif etdiyi birləşmə kodu telefona daxil edilərək kompüter və telefon arasında internet üzərindən əlaqə qurulur. Bundan sonra telefon mikrofon kimi istifadə oluna bilər. Kursoru kompüterdə mətn yazmaq üçün nəzərdə tutulan hər hansı pəncərəyə (məsələn, «Microsoft Word» və ya istənilən mətn prosessorunun pəncərəsi) qoymaqla işə başlamaq olar. Telefona deyilən imla avtomatik olaraq mətnə çevrilərək kompüterə yazılır. «Dilmanc» tərəfindən yaradılmış digər proqramlar kimi, bu proqram da ödənişsiz yayılır və layihənin saytından köçürülür.

Xatırladaq ki, «Dilmanc» layihəsinin elmi rəhbəri rabitə və yüksək texnologiyalar naziri, akademik Əli Abbasovdur.

**Müdriklər deyib ki...**

***«Dünya hamıya çatacaq qədər böyükdür. Başqasının yerini tutmağa çalışmaqdansa, öz yerin haqqında fikirləş...».***

*Çarli Çaplin (1889-1977)*

